# QURANDA ŞÖVQ VƏ HƏYƏCAN



HARUN YƏHYA
(ADNAN OKTAR)

Ümumi mənası ilə xatırlatsaq, şövq insanın hər hansı bir mövzuya qarşı daxilən ciddi maraq və istək duyması və bu məqsədinə çata bilmək üçün səmimi səy göstərməsidir. Möminlərin şövqlərinin qaynağı Allah'a olan imanları və Allah'ın rizasını, rəhmətini və cənnətini qazanmağı qarşılarına məqsəd qoymalarıdır. Buna görə də möminlərin şövqü əsla bitməz, tam əksinə, imanlarından qaynaqlanan şövqləri daima artar.

Bu kitabın məqsədi məqsədi bütün inananlara şövqün nə qədər böyük bir nemət və möminlərin gücünü necə artıran bir xüsusiyyət olduğunu göstərməkdir. Eyni zamanda, şövqün istənilən şərtlərdə möminləri müvəffəqiyyətli edən əhəmiyyətli sirr olduğunu açıqlamaq, səbir və təvəkküllə çətinliklərə sinə gərib şövqlərini itirməyənlərə vəd edilən gözəllikləri müjdələməkdir. Allah'ın çağırışına tabe olan möminləri hazırlamaq, təşviq edib cəsarətləndirmək və onlara genişliyi göylərlə yer üzü qədər olan (Ali-İmran surəsi, 133) cənnətə qovuşmaq üçün yarışmalarını bir də xatırlatmaqdır.



**MÜƏLLİF HAQQINDA:** Harun Yəhya imzasından istifadə edən Adnan Oktar 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah'ın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allah'ın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda tərif edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.


بسم الله الرحمن الرحيم
الله
رسول
محمد



# QURANDA ŞÖVQ VƏ HƏYƏCAN

Harun Yəhya (Adnan Oktar)



## YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s.ə.v) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allah'ın son kitabı və son sözü, Peyğəmbərimizin (s.ə.v) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.



Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah'ın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq,

uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allah'ın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allah'ın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# OXUCUYA

- Bu kitabda və digər fəaliyyətlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə fəlsəfənin əsasını təşkil etməsidir. Yaradılışı və dolayısilə Allah'ın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Ona görə bu nəzəriyyənin yalan olduğunu insanlara göstərmək çox mühüm imani vəzifədir. Bu mühüm xidmətin bütün insanlara çatdırılması isə vacibdir. Bəzi oxucularımızın bəlkə bircə kitabımızı da oxuma imkanı yoxdur. Bu səbəbdən hər kitabımızda bu mövzuya xülasə şəklində də olsa bir bölmə ayrılmışdır.
- Kitabların məzmunu ilə bağlı digər cəhəti də nəzərə çatdırmaq lazımdır. Müəllifin bütün kitablarında imani mövzular, Quran ayələri işığında izah edilir, insanlar Allah'ın ayələrini öyrənməyə və yaşamağa dəvət olunurlar. Allah'ın ayələri ilə bağlı bütün mövzular oxuyanın ağlında heç bir şübhə və ya sual doğurmayacaq şəkildə açıqlanır.
- Buradakı izahlarda istifadə edilən səmimi, sadə və axıcı üslub isə kitabların hər kəs tərəfindən asanlıqla başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsdə oxunan kitablar" ifadəsinə tamamilə uyğun gəlir. Dini qətiyyətlə rədd edən insanlar belə bu kitablarda izah edilən həqiqətlərdən təsirlənir və izah edilənlərin doğruluğunu inkar etmirlər.
- Bu kitab və müəllifin digər əsərləri oxucular tərəfindən fərdi şəkildə olduğu kimi, qarşılıqlı söhbət mühitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun kitabları birlikdə oxumaları, mövzu ilə bağlı öz fikir və təcrübələrini bir-birləri ilə paylaşmaları baxımından faydalı olar.
- Bununla yanaşı sadəcə Allah rizası üçün yazılmış bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük xidmət olar. Çünki müəllifin bütün kitablarında sübut və inandırma çox güclüdür. Bu səbəbdən dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasına sövq etməkdir.
- Kitabların arxasına müəllifin digər əsərlərinin təqdimatının əlavə edilməsinin isə mühüm səbəbləri var. Bu sayədə kitabı əlinə alan şəxs yuxarıda bəhs etdiyimiz xüsusiyyətləri daşıyan və oxumaqdan zövq aldığını ümid etdiyimiz bu kitabla eyni vəsflərə malik olan daha bir çox əsər olduğunu görəcəkdir. İmani və siyasi mövzularda faydalanacağı zəngin mənbə toplusunun mövcud olduğuna şahid olacaqdır.
- Bu əsərlərdə digər bəzi əsərlərdə görünən, müəllifin şəxsi qənaətlərinə, şübhəli mənbələrə əsaslanan izahlara, müqəddəs şeylərə qarşı ədəbə və hörmətə diqqət verilməyən üslublara, narahatlıq verən şübhəli və ümidsizliyə sürükləyən izahlara rast gələ bilməzsiniz.

Bu kitabda istifadə edilən ayələr Ə. Musayevin tərcümə etdiyi Qurani-kərim kitabından götürülmüşdür.

www.harunyahya.org - www.harunyahya.net - www.harunyahya.az

# İÇİNDƏKİLƏR

GİRİŞ ....................................................................................8

ŞÖVQ NƏDİR? ....................................................................................10

CAHİLİYYƏ CƏMİYYƏTİNİN ŞÖVQ ANLAYIŞI .................12

MÖMİNLƏRİN ŞÖVQÜ ....................................................................17

ŞEYTANIN MÖMİNLƏRİN ŞÖVQÜNÜ QIRMAQ CƏHDİ ...21

MÖMİNLƏRİN ŞÖVQÜ
HANSI DAVRANIŞLARINDAN BƏLLİ OLUR?.....................23

İNANANLARIN  HƏYƏCANI NECƏDİR?..............................45

MÖMİNLƏR HANSI ŞEYLƏRƏ GÖRƏ
HƏYƏCANLANIRLAR?...........................................................47

ŞÖVQ VƏ HƏYƏCAN MÖMİNƏ NƏYİ QAZANDIRIR? ......67

DİNİ SƏTHİ YAŞAYAN İNSANLARIN ŞÖVQSÜZLÜYÜ .....72

ŞÖVQSÜZ VƏ KÖNÜLSÜZ EDİLƏN
İŞLƏRİN NƏTİCƏSİ NƏDİR?..................................................81

ŞÖVQSÜZLÜKDƏN XİLAS OLMAĞIN YOLU......................85

NƏTİCƏ ....................................................................................88

ƏLAVƏ BÖLMƏ: TƏKAMÜL YALANI..................................91

# GİRİŞ

Həyatlarının əsl məqsədi Allah`ın rizasını qazanmaq olan möminlər bütün gücləri ilə bu yolda çalışan insanlardır. Allah Quranda onlardan Allah yolunda malları və canları ilə vuruşan, yəni səy göstərən, cəhd göstərən insanlar kimi bəhs edir. Çünki bütün həyatlarını Allah`a həsr etmiş və Allah`ın rizasına, cənnətinə qarşılıq sahib olduqları maddi-mənəvi hər şeylərini ortaya qoymuşlar.

İnananların Allah`a təslim olmalarını və hər bir çətinlikdə ruhdan düşmədən: "**Allah bizə bəs edər**" (Ali-İmran surəsi, 173) deyəcək qədər yüksək ruha sahib olmalarını təmin edən əhəmiyyətli bir xüsusiyyətləri vardır: Allah rizasını qazanmaq şövqü…

İmanın qazandırdığı bu şövq insanın vücudi və zehni gücünü ən yüksək səviyyəyə qaldıran və beləcə, insanın həyatı həmişə ən gözəl və ən dinc şəkildə yaşamasını təmin edən bir qüvvədir. Allah eşqindən qaynaqlanan bu həyəcan inananlara mənəvi güc, dözüm və müqavimət verir. Dəmir kimi iradə, cəsur və igid xarakteri qazandırır. Möminlər bu imani güc sayəsində hər çətinliyə ən gözəl şəkildə sinə gərə bilir və istənilən şərtlərdə bütün gücləri ilə Allah`ın rizasını qazanmaq üçün səy göstərməyə davam edirlər.

Allah Quranın bir çox ayəsində şövqün əhəmiyyətinə diqqət çəkmiş və möminlərin sərhəd tanımadan bir-birlərini təşviq edib gücləndirmələrini tövsiyə etmişdir. "**...Möminləri də təşviq et!...**" (Nisa surəsi, 84) ayəsi ilə əmr edildiyi kimi, inananları şövqləndirmək Quran əxlaqını yaşayan insanlar üçün önəmli bir ibadətdir.

Bu ayənin işığında bu kitabda möminlərin həyatlarının sonuna qədər hər an daha da artan şövqlərindən bəhs edəcəyik. Məqsəd bütün inananlara şövqün nə qədər böyük bir nemət və möminlərin gücünü necə artıran bir xüsusiyyət olduğunu göstərməkdir. Eyni zamanda, şövqün istənilən şərtlərdə möminləri müvəffəqiyyətli edən əhəmiyyətli sirr olduğunu açıqlamaq, səbir və təvəkküllə çətinliklərə sinə gərib şövqlərini itirməyənlərə vəd edilən gözəllikləri müjdələməkdir. Allah`ın çağırışına tabe olan möminləri hazırlamaq, təşviq edib cəsarətləndirmək və onlara genişliyi göylərlə yer üzü qədər olan (Ali-İmran surəsi, 133) cənnətə qovuşmaq üçün yarışmalarını bir də xatırlatmaqdır.

Ayrıca, Allah`ın bildirdiyi kimi, yarışıb önə keçənlərdən olmaq var ikən, özlərinə orta yol tutan və dini bu şəkildə yaşamağı kafi görənləri də belə böyük nemətin varlığını xatırladaraq hərəkətə keçirməkdir.

# ŞÖVQ NƏDİR?

Şövq və həyəcan, əslində, hər kəsin yaxından tanıdığı və həmişə yaşadığı duyğulardır. Ancaq burada şövq anlayışını mövzu kimi götürməkdəki əsl məqsəd cəmiyyətin daxilində yaşanan şövq anlayışı ilə Quran əxlaqının insana qazandırdığı şövq arasındakı nəzərə çarpan fərqlilikləri ortaya qoymaqdır.

Ümumi mənası ilə xatırlatsaq, şövq insanın hər hansı bir mövzuya qarşı daxilən ciddi maraq və istək duyması və bu məqsədinə çata bilmək üçün səmimi səy göstərməsidir. Böyük-kiçik hər insanın həyatında şövqlə sarıldığı bir çox mövzu vardır. Bəzən maddi mövzularda yaşanan bu şövq bəzən də bir çox dünyəvi maraqlarda özünü göstərir... Bəzi insanlar zəngin ola bilmək, mövqe və məqam və karyera sahibi ola bilmək üçün çalışarkən, bəziləri də insanlar arasında üstün mövqe əldə etmək, hörmət, etibar və tərif qazanmaq üçün əmək sərf edirlər. Məsələn, bir şagirdin universitet imtahanından keçmək üçün göstərdiyi oxumaq əzmi, çox istədiyi yeni bir işə başlayan bir insanın işində göstərdiyi şövq və ya yaxşı qazanc gətirəcəyinə inanılan ticarət üçün göstərilən şövq və səy hər kəsə məlumdur. Ancaq bütün bu nümunələrdə qəti olaraq diqqəti cəlb edən ortaq bir nöqtə vardır ki, o da şövqün insana hər dəfəsindən çox fərqli və güclü xarakter qazandırmasıdır.

Bir insan şövqlə çatmağa çalışdığı məqsəd üçün ümumi halından çox fərqli və əzmli davrana bilər. Normal şərtlərdə bu hədəfinə çatmaq üçün gözə almadığı risklərə atıla bilər və yenə heç bir şeydə göstərmədiyi fədakarlığı bu mövzuda heç düşünmədən göstərə bilər.

Belə ki, sonda ağıl və qabiliyyətlərindən və bütün güclərindən ən yaxşı şəkildə istifadə edib maddi və mənəvi mənada ciddi bir güc əldə edə bilər.

Ancaq bir çox insanın şövqü qalıcı deyil. Bunun səbəbi isə, heç şübhəsiz ki, bu insanların şövqlərinin möhkəm bir təmələ dayanmamasıdır. Hər nə olursa olsun, şövqlərinə dəstək olan, onlara hər an güc verən qəti bir məqsədə sahib deyildirlər.

Həyatlarının sonuna qədər qəlblərində yaşadıqları şövqü əsla itirməyən yeganə insanlar isə möminlərdir. Çünki möminlərin şövqlərinin qaynağı Allah`a olan imanları və Allah`ın rizasını, rəhmətini və cənnətini qazanmağı qarşılarına məqsəd qoymalarıdır.

Növbəti hissələrdə ətraflı şəkildə toxunacağımız bu mövzuya keçməzdən əvvəl, möminlərin şövq anlayışlarındakı bu fərqliliyin daha yaxşı aydın olması baxımından cahiliyyə cəmiyyətlərində hakim olan şövq anlayışını təsvir etməkdə fayda vardır.

# CAHİLİYYƏ CƏMİYYƏTİNİN ŞÖVQ ANLAYIŞI

## Cahiliyyə cəmiyyətini kimlər meydana gətirir?

Cahillik anlayışı, ümumiyyətlə, insanlar arasında bilgisizlik, mədəniyyətsizlik hesab edilir. Ancaq bizim bu kitab boyu dediyimiz cahiliyyə insanları özlərini yaradan Allah`ın sonsuz qüdrət və sifətləri, insanlar üçün endirilən Qurani-kərim və din haqqında məlumatı olmayan kəslərdir. Bu kəslər Quranda bildirilən həqiqətlərə görə deyil, çevrələrindən öyrəndikləri yanlış bilgilərə görə yaşayırlar. Allah Quranda bu səhv düşüncəni mənimsəmiş cahiliyyə insanlarını ataları qorxudulmamış və qafil olan (Yasin surəsi, 6) insanlar olaraq bildirmişdir.

Qurandan, dünya həyatının keçici və sonlu olduğundan və ölümdən sonra başlayan cənnət və ya cəhənnəm həyatından qafil olan cahiliyyə insanlarının həyatları da bu bilgisizlikləri ilə düz mütənasibdir. Dolayısı ilə sevindikləri, şövqləndikləri, həyəcan duyduqları mövzular da yenə səhv və batil düşüncələrin üzərinə qurulmuşdur.

## Cahiliyyə insanı dünya həyatına yönəlmiş məqsədləri üçün şövqlənər…

Quranda "O kəslər ki, dinlərini oyun-oyuncaq etmiş və dünya həyatı onları aldatmışdı..." (Əraf surəsi, 51) ayəsində də açıqlandığı

kimi, cahiliyyə cəmiyyətində insanlar dünya həyatı haqqında həddindən çox yanılırlar. Həyatın nə qədər qısa və nöqsanla dolu olduğunu bildikləri halda, yenə də bu keçici həyatı axirətdəki sonsuz həyatdan üstün tuturlar. Bunun ən önəmli səbəblərindən biri isə dünya həyatında əldə etməyi ümid etdikləri mənfəətləri daha asan qazanılan  görmələri və axirətin varlığından şübhə etmələridir. Onların bu səhv məntiqlərinə görə, dünya hər an əlçatan kimi yaxında, axirət isə uzaqdadır.

Bu, əlbəttə ki, son dərəcə səthi məntiqdir. Hər şeydən əvvəl, insanın dünyadakı həyatı son dərəcə qısa bir zamandır. Bir qismi uşaqlıq, bir qismi də yaşlılıq dövrü ilə keçən əlli-altmış il sonsuz axirət həyatının yanında, heç mübahisəsiz, çox qısadır. Bundan başqa, insan bu əlli-altmış ilə yetişmədən hər an və hər hansı bir səbəbə görə də ölə bilər və yaxında zənn etdiyi dünya həyatı da bir anda yox olub gedə bilər. Və hər insan özünü heç gözləmədiyi bir anda çox uzaqda zənn etdiyi, əslində isə çox yaxın olan axirət həyatına başlayarkən görə bilər. Budur, qafil olan cahiliyyə insanları bu qısa zamanı Allah`ın rizasını və cənnətini qazanmaq üçün deyil, yalnız dünya həyatını özlərinə görə ən yaxşı şəkildə yaşamaq üçün sərf edirlər. Halbuki, bütün həyatları maddi-mənəvi çətinlik və əzabla keçir.

Dolayısilə, bu insanların şövqləndikləri mövzular, əlbəttə, dünya həyatında əldə etdikləri kiçik məqsədlərlə məhdudlaşır. Əslində, onların şövq və həyəcan zənn etdikləri hiss dünya həvəsindən başqa bir şey deyil. Dünya həyatına həvəslə bağlı olduqları üçün mənfəət əldə edə biləcəklərini ümid etdikləri böyük-kiçik hər şeyə qarşı daxilən nəfsani istək duyurlar. Bu məntiqə görə, əldə edəcəkləri mənfəətlərin hər biri dünya həyatını daha yaxşı şərtlərlə yaşamalarını təmin edir. Dolayısilə, kimiləri zəngin olmaq, kimiləri cəmiyyətdə yaxşı bir yer əldə etmək, kimiləri də karyera sahibi olmaq kimi mövzularda daxilən şövq duyurlar. Hədəfləri olan bu mənfəətlərə çatmaq

üçün heç bir fədakarlıqdan çəkinməyib bütün çətinliklərə dözürlər.

Bu insanların şövq anlayışlarına gündəlik həyatdan da bir çox nümunə vermək mümkündür. Məsələn, çevrəsində etibar qazanmaq üçün diplom əldə etmək istəyən şagird hər cür çətinliyə baxmayaraq, heç durmadan böyük səylə illər boyu çalışır. Bu yolda lazım gəldiyində günlərlə yuxusuz qalmağı, yoldaşlarından və ya əyləncə yerlərindən kənar durmağı, hər səhər tezdən yola düşüb yürüməyi gözə alır. Amma eyni fədakarlığı dostuna kömək etmək üçün etməz. Çünki bu fədakarlıqdan dünyəvi bir mənfəət əldə etməz.

Burada demək istədiyimiz insanların böyük hissəsinin şövq və həyəcanla bir işin öhdəsindən gəldiklərinə baxmayaraq, bunu yalnız öz mənfəətləri müqabilində etmələridir. Bu insanlar eyni şövqü Allah rizasını və cənnəti qazandıran bir iş üçün hiss etməz, özlərinə görə dünyəvi  mənfəət görmürlərsə, son dərəcə şövqsüz olurlar.

Cahiliyyə cəmiyyətinin yalnız dünyəvi mənfəətlər üzərinə qurulmuş bu şövq anlayışına belə bir nümunə yenə vermək olar: müflisləşmək üzrə olan bir sahibkar şirkətini bu vəziyyətdən qurtarmaq üçün elə böyük bir istək duyar ki, ağlından, imkanlarından və zamanından ən yaxşı şəkildə istifadə edər. Eyni şirkətdə sabit maaşla işləyən işçi isə şirkəti iflasdan qurtarmaq üçün eyni şövqü duymaz, dolayısilə, bundan ağıllı çıxış yolu da tapmaz. Çünki şirkət onun deyil. Şirkət müflisləşdiyində zərərə düşən adam  yenə özü deyil. Göründüyü kimi, cahiliyyə cəmiyyətlərində hər hansı bir mövzudakı şövqün və qərarlılığın təməlində, ümumiyyətlə, bu işin nəticəsində əldə ediləcək dünyəvi mənfəətlər dayanır. Şövqün dərəcəsini təyin edən yenə mənfəətin dərəcəsidir.

## Cahiliyyə cəmiyyətinin şövqü keçici həvəslərdən ibarətdir…

Cahiliyyə cəmiyyətinin şövq anlayışında diqqəti cəlb edən

önəmli bir nöqtə də yaşadıqları bu həyəcanın tamamilə keçici həvəslərə söykənməsidir. Bir şeyə qarşı daxilən ani bir maraq və həyəcan duyub yenə bunu bir anda səbəbsiz yerə itirirlər.

Cahiliyyə cəmiyyətlərində hər insanın həyatında böyük bir şövqlə başladığı, ancaq qısa zaman sonra bezməklə və çətinlik görməklə yarımçıq buraxdığı saysız-hesabsız işlər vardır. Məsələn, musiqi aləti çalmaq üçün böyük istək duyan insanların bir çoxu qısa müddət sonra bu mövzudakı şövqlərini itirirlər və təhsillərini tamamlamadan buraxırlar. Yaxud yoxsullara kömək etmək üçün şövqlənən və dərhal işə başlayan bir insanın qısa müddət sonra həvəsi yox olur və bu işdən sıxıldığını düşünüb kköməkdən imtina edir. Çünki bu insanlar həyatları üçün yüksək və şərəfli ideallar seçmirlər.

Yoxsullara kömək etmək, yaxşılıq etmək, özünü təkmilləşdirmək kimi mövzular bu insanlar üçün yalnız gəlib keçici həvəsdən ibarətdir. Bütün günü yaşamaq, ehtiyaclarını qarşılamaq, cəmiyyətin gözündə yaxşı yer qazanacaq qədər səy göstərmək bu insanlara bəs edir. Bunu əldə etdiklərini anladıqları nöqtənin irəlisində heç bir şey onlara müvəffəq olmaq üçün lazımi mövzu olmaz. Dolayısilə, ehtiyac və mənfəətləri xaricindəki işlərə bəzən qısa müddətli maraq duyurlar, ancaq bunları özlərinə ideal seçmədikləri üçün tez sıxılırlar.

Halbuki, bir insan etdiyi işin, həqiqətən, fayda və gözəllik gətirən bir şey olduğuna inanarsa, şövqü də sonadək davam edər. Ancaq dünya və axirətlə əlaqədar gerçəklərə arxa çevirib yaşayanların arxasınca getdikləri işlərin heç biri daimi şövq duymağa dəyəcək qədər əhəmiyyətli deyil. Bu səbəblə, hər şeydə şövqləri çox zəif olur və bu, tez itir. Ən kiçik çətinlik, müvəffəqiyyətsizlik və ya tənqiddə belə bir anda bezib yorulur və həvəsdən düşüb ideallarından imtina edilər. Yaxud asanlıqla ümidsizliyə düşür və "bu qədər əmək sərf etdim, heç bir nəticə ala bilmədim" kimi sözlərlə kədərlənib bütün şövqlərini itirirlər.

Məsələn, uzun illər memar olmağın həyəcanı ilə yaşayan bir adam layihə şəkillərində qarşılaşdığı çətinliklər səbəbi ilə hələ bu əməlini reallaşdırmadan bir anda bütün şövqünü itirir. Yaxud da şəkil çəkməyə həvəsli olan birisi ir neçə sınaqdan sonra bu işin təxmin etdiyindən daha çətin olduğunu görüb şəklə olan bütün marağını itirir.

Ən çox rast gəlinən nümunələrdən biri isə kömək və ya təsanüd birliklərinə qoşulmaqda görünür. Ümumiyyətlə, qəzet və ya dost çevrəsində belə birliklərdə könüllü olaraq çalışan insanlarla əlaqədar hər dinləyicinin xoşuna gələn şeylərdən bəhs olunur. Həftə sonları bu insanların birlikdə məktəbi rəngləməyə getdikləri, bunu edərkən vicdanən rahat olduqları və əyləndikləri bunları dinləyən insanlara cazibədar gəlir. Ancaq bunu yalnız hörmət qazanmaq üçün edənlər bir neçə dəfədən sonra bütün maraqlarını itirirlər.

Maraq və şövqlərini yenidən canlandırmağın tək yolu isə cəmiyyətdə bu işlərin təkrar eşitdirilməsi və bunu edən insanların təriflənməsidir. Əks halda, bir neçə dəfədən sonra həftə sonu erkən qalxmaq belə bəzi insanlara çox çətin gəlir və dərhal belə işlərdən imtina edirlər.

Halbuki, yaxşılıq və kömək etməyi Allah`ın rizasına çatmaq üçün vəsilə kimi görən möminlər bu mövzuda heç vaxt şövqlərini itirməzlər. Çətinliklərlə qarşılaşmaq bu ideallarından onları çevirməz. Əksinə, çətinliklərə baxmayaraq etdikləri işlərin Allah qatında böyük rizaya vəsilə olacağını düşünüb sevinir və daha da şövqlənirlər.

# MÖMİNLƏRİN ŞÖVQÜ

## Möminlərin şövqünün qaynağı Allah`a olan imanları, sevgi və bağlılıqlarıdır…

Möminlərin yaşadığı şövq və həyəcan cahiliyyə cəmiyyətində hakim olan mənfəətə əsaslanan şövq anlayışından çox fərqlidir. İnananların şövqü Allah`a olan sevgi və bağlılıqlarından qaynaqlanır. Onlar sevgilərini cahiliyyə cəmiyyəti kimi həvəslə dünyaya deyil, özlərini yoxdan var edən, ruzi verən, yaşadan, sonsuz mərhəmət və şəfqətli olan Allah`a yönəltmişlər.

Bunun ən əhəmiyyətli səbəbi isə möminlərin hadisələri açıq şüurla qiymətləndirmələridir. Həyatı Allah`ın verdiyini, yer üzündəki canlı-cansız hər varlığı Allah`ın qoruduğunu və Onun xaricində bütün varlıqların Ona möhtac olduğunu bilirlər.

Allah`a duyduqları sevgi və bağlılığın nəticəsi olaraq həyatları boyu Allah`ın rizası üçün səy göstərirlər. Allah`ın rizasını qazanmaq istəyi möminlərin ən əhəmiyyətli şövq və sevinc qaynağıdır. Allah`ın rizasını qazanmaq və Allah`ın möminlər üçün hazırladığı cənnətə qovuşmaq arzusu onlara bitib-tükənməyən mənəvi güc və şövq qazandırır.

## Möminin şövqü davamlıdır

**Möminlər yalnız Allah`a və Peyğəmbərinə iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə vuruşanlardır! Məhz beləlri sadiq olanlardır! (Hucurat surəsi, 15)**

Yuxarıdakı ayədə də göründüyü kimi, Allah Quranda möminləri iman edib sonra da heç bir şübhəyə düşmədən Allah`ın rizasını qazanmaq üçün səy göstərənlər kimi təyin etmişdir. Möminlərin bu xüsusiyyəti, heç şübhəsiz ki, şövqlü olduqlarını göstərir. Çünki hər nə olursa olsun, bir ömür boyu, həm də heç bir şübhəyə qapılmadan inandıqları dəyərlərə görə səy göstərmələri ancaq imanın qazandırdığı şövqlə mümkün olur.

Möminlərin şövqünə dəstək olan bir başqa səbəb də onların **"...Ona (Allah`a) həm qorxu, həm də ümidlə dua edin. Həqiqətən, Allah`ın mərhəməti yaxşılıq edənlərə çox yaxındır!" (Əraf surəsi, 56)** ayəsində bildirildiyi kimi, həyatlarının sonuna qədər qorxu və ümid arasında yaşamalarıdır. Qorxu ilə ümid arasında yaşamağın mənası isə budur: iman edənlər Allah`ın özlərindən razı olub-olmadığından və cənnətə layiq əxlaq göstərib-göstərmədiklərindən heç vaxt tam əmin ola bilməzlər. Bu səbəblə də hesab günündə Allah`ın əzabı ilə qarşılaşmaqdan çəkinir və davamlı əxlaqlarını gözəlləşdirmək üçün səy göstərirlər. Eyni zamanda, Allah`ın rizasını, sevgisini qazanmaq üçün əllərindən gələn bütün səyi göstərdiklərini vicdani olaraq bilirlər. Buna görə, sonsuz mərhəmət sahibi olan Allah`ın rəhmət və cənnətinə qovuşmağı çox ümid edirlər. Bu iki hissi, yəni qorxu və ümidi eyni anda yaşadıqları üçün heç vaxt göstərdikləri cəhdi kafi bilməz, özlərini səhv və nöqsanlardan uzaq görməzlər. **"... Rəbbindən və pis haqq-hesabdan qorxurlar" (Rəd surəsi, 21)** ayəsi ilə də bildirildiyi kimi, Allah`ın əzabından çəkinir və dinə şövqlə sarılırlar. Allah qorxusu onları şövqləndirir və beləcə, həvəsdən düşüb zəiflik göstərməsinə mane olur. Allah`ın iman edib saleh əməllərdə olanları cənnətlə müjdələdiyini bilmək də onları canlandırır.

Göründüyü kimi, möminlərin şövqü cahiliyyə cəmiyyətinin şövq anlayışından tamamilə fərqlidir. Onların gəlib keçici həyəcanları ilə müqayisədə möminlərdə Allah inancına dayanan davamlı coşqunluq

vardır. Allah`ın bu şövqlərinə qarşı inananlara vəd etdiyi müjdə isə belədir:

**“Möminlərə Allah tərəfindən böyük bir mükafat bəxş ediləcəyi ilə müjdə ver!” (Əhzab surəsi, 47)**

## Möminlər arasında şövqlə yarışıb xeyirlərdə önə keçənlər vardır

Hər insanın imanı, Allah`a olan yaxınlığı və bağlılığı bir deyil. Allah möminlərin bu mövzuda öz aralarında müxtəlif dərəcələrdə olduqlarını bildirmişdir. Aralarında yarışıb önə keçənlərin olduğu kimi, orta yol tutanlar və ya qəlblərində xəstəlik olanlar da vardır:

**Sonra kitabı bəndələrimizdən seçdiklərimizə miras verdik. Onlardan kimisi özünə zülm edər, kimisi mötədil olar, kimisi də Allah`ın izni ilə yaxşı işlərdə irəli keçər. Bu, böyük lütfdür! (Fatir surəsi, 32)**

Yarışıb önə keçənlərə bu gücü verən, əlbəttə ki, Allah`a olan bağlılıqları və hörmət dolu qorxularıdır. Daxilən səmimi imanları onlara Allah`ın rizasını qazanmaq yolunda yarışıb önə keçəcək qədər güclü şövq qazandırır. Quranda Allah yolunda malları və canları ilə səy göstərib önə keçən bu kəslərin Allah qatında dərəcə baxımından da üstün edildiyi bildirilmişdir:

**Zərər çəkmədən əyləşən möminlərlə Allah yolunda öz malları və canları ilə cihad edən kimsələr bir olmazlar. Allah malları və canları ilə vuruşanları əyləşənlərdən dərəcə etibarilə üstün tutdu. Allah bunların hamısına vəd etmişdir. Allah mücahidlərə oturanlardan daha böyük mükafatlarla imtiyaz vermişdir. (Nisa surəsi, 95-96)**

Orta yolu tutanlar isə Allah`ın rizasını qazanmaq üçün canla-başla səy göstərmək olduğu halda, orta yolu seçən kəslərdir. Onların axirətdəki durumu, əlbəttə, yarışıb önə keçənlərlə eyni olmayacaq.

Allah **"Aranızda elələri də vardır ki, ağır tərpənər" (Nisa surəsi, 72)** ayəsi ilə mömin birliyi içində şövq baxımından geri qalan üçüncü qrup insana diqqət çəkir. Yuxarıda "Fatir" surəsindəki ayədə bildirildiyi kimi, bu insanlar öz nəfslərinə zülm edirlər. Qurana görə, bu adamların axirətdə alacaqları qarşılıq da fərqli olacaq. Yarışıb önə keçənlər Allah qatında böyük dərəcələrlə qarşılıq görərkən şövqsüz və ağır tərpənənlər tövbə edib bu durumlarını düzəltməsələr, etdiklərinin boşa getdiyini görəcəklər.

# ŞEYTANIN MÖMİNLƏRİN ŞÖVQÜNÜ QIRMAQ CƏHDİ

Əvvəlki səhifələrdə möminlərin şövq və həyəcanın müvəqqəti olmadığından bəhs etdik. Ancaq unutmamaq lazımdır ki, möminlərin şövqündəki bu davamlılıq və sabitlik onların səmimi imanlarından qaynaqlanır. Yoxsa dünya həyatında yaradılan imtahanın gərəyi olaraq şeytan əks yöndə davamlı ciddi mübarizə aparır və şövqlərini qırmaq üçün bütün gücü ilə çalışır.

Şeytanın dünyadakı hədəfi mənasız düşüncə və vəsvəsələrlə insanları gizli şəkildə aldatmaq və beləcə, müsibətə sürüməkdir. Ayədə şeytanın bu yöndə göstərdiyi fəaliyyət "**Onları hökmən sapdıracaq, xülyalara salacağam…**" (Nisa surəsi, 119) şəklində ifadə edilmişdir.

Şeytan bütün insanlara olduğu kimi, inananlara da müxtəlif yollarla yaxınlaşmağa, xeyirli və gözəl olan şeyləri onlara şər kimi göstərməyə çalışır. Bəzi hadisələrin çıxış yolu olmadığını göstərib yarı yoldan geri çevirməyi və faydalı işlərin yarımçıq buraxılmasını istəyir. İşi çətin göstərib insanları ruhdan salmağa, ümidsizliyə sövq etməyə çalışır. Tənbəlliyi təşviq edib işləri gecikdirməyi, iradəsizlik göstərmələrini istəyir.

Ancaq Quranda şeytanın bütün bu cəhd və hiyləsinin son dərəcə zəif olduğuna diqqət çəkilmişdir:

**(Şeytan) onlara vədlər verir, ürəklərində arzular oyadır. Lakin şeytan onlara yalnız yalan vədlər verir. (Nisa surəsi, 120)**

**... Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir! (Nisa surəsi, 76)**

Quranda imanı tam qavramadıqları bildirilən insanlar isə ağıl və vicdanlarından lazımi qədər istifadə etmədiklərinə görə, şeytanın bu tələsinə asanlıqla düşürlər. Çünki bu insanlar iman etdiklərini söyləyən, amma qəlblərində imanın dərinliyini yaşamayan kəslərdir. Buna görə, Allah`ın rizasını və cənnətini deyil, dünya həyatının keçici bəzəklərini əldə etməyi hədəf götürürlər. Məqsədlərinin möminlərdən tamamilə fərqli olduğuna görə şeytanın çağırdığı həyatı cazibəli görür, səsinə razılıq verirlər. Halbuki, şeytan hər mövzuda olduğu kimi, bu mövzuda da insanları yalnız mənasız aldanışa və sonsuz əzab yurdu olan cəhənnəm atəşinə çağırır.

Səmimi möminlər isə həyatlarını Quran əxlaqı yönündə qurduqları üçün şeytanın özlərinə hansı tələlərlə yanaşacağını, qurduğu hiylənin nə qədər zəif olduğunu çox yaxşı bilən insanlardır. Bu səbəblə, şeytanın şövqlərini qırmasına əsla izn verməzlər. Quranda möminlərin bu mövzuda göstərdiyi qərarlı və səmimi davranış belə bildirilmişdir:

**Əgər sənə şeytandan bir vəsvəsə gəlsə, Allah`a sığın. Şübhəsiz ki, Allah eşidəndir, biləndir! Allah`dan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman onlar xatırlayıb düşünərlər və dərhal görən olarlar. Öz qardaşlarını azğınlığa sürükləyər, sonra da əl çəkməzlər. (Əraf surəsi, 200-202)**

# MÖMİNLƏRİN ŞÖVQÜ HANSI RƏFTARINDAN AYDIN OLUR?

Kitabın əvvəlindən bura kimi möminlərin şövq anlayışlarının nə qədər möhkəm təməllərə dayandığına və buna görə şeytanın şövq qırmaq yönündəki bütün səylərinin nəticəsiz qaldığına toxunduq. Bu hissədə isə möminlərin şövqlərinin hansı rəftarından müəyyən olduğunu bildirəcəyik.

Bu mövzuda əvvəlcə bunu deyə bilərik ki, qəlbində imanın həyəcanını yaşayan bir insanın üstünlüyü və fərqliliyi onun həyatının hər anında göstərdiyi hər davranışdan, söylədiyi hər sözdən aydın olur. Bu, elə bir diqqəti cəlb edən rəftar gözəlliyi meydana gətirir ki, eyni şövqü qəlblərində yaşayan digər möminlər bu rəftarın imandan və Allah`a olan bağlılıqdan qaynaqlanan şövq və həyəcan olduğunun dərhal fərqində olurlar.

İnanmayanlara gəlincə, onlar da bu kəslərdəki şövqü və mənəvi gücü görürlər. Ancaq onlar həqiqi imanı tanımadıqları, Allah`a könüldən bağlanmanın nə demək olduğunu, imanın necə yaşandığını bilmədikləri üçün bu əzm və coşqunluğun qaynağını qavraya bilməzlər. Ancaq hər nə qədər buna ad qoya bilməsələr də, yenə də bu insanlarda digərlərində olmayan igidliyi görürlər.

Bununla yanaşı, şövqün insanın hansı hərəkətlərindən aydınlaşması möminlər üçün çox əhəmiyyətlidir. Çünki başqalarının imanı və Allah`a olan yaxınlığı barədə qəti fikir irəli sürmək mümkün

deyil. Bu mövzunun bilgisi Allah qatında gizlidir.

Kimin səmimi bir imana sahib olduğunu, kimin isə qəlbində xəstəlik olduğunu bilən tək güc Allah`dır. Ancaq Allah bu mövzuda möminlərə yol göstərici kimi bir ölçü vermişdir. Bu ölçü möminlərin Allah`ı razı etmə və Onun dinini yaşama mövzusunda göstərdikləri şövq və həyəcandır. Bu şəkildə möminlər həqiqətən inanan və həyatını həqiqətən Allah`a həsr edənləri asanlıqla təşxis edə bilİrlər. Eyni şəkildə, möminlərlə təzadlıq təşkil edən şövqsüzlükləri ilə diqqəti cəlb edən insanların zəifliyi də dərhal görünür və onları imani yöndən təqviyyə edirlər.

Növbəti səhifələrdə möminlərin bu imani coşqunluğunu hansı rəftarlarından aydınlaşdığına toxunacağıq. Bu mövzunu əhəmiyyətlə vurğulamaqdakı məqsəd isə kitabın əvvəlində də ifadə etdiyimiz kimi, möminlərin şövqlərini son həddə kimi artırmaq və geridə qalanları və ya ağır tərpənənləri təşviq edib təqvalı olmalarına kömək etməkdir.

## Həyatlarının sonuna qədər Allah`a sadiq qalmalarından...

İnsanlar həyatı boyunca özlərinə maddi və ya mənəvi baxımdan mənfəət verən bir çox fürsətlə qarşılaşırlar. Belə bir vəziyyətdə bir çoxları mənfəət əldə etmək ümidi ilə o ana qədər dəyər verdiyi hər şeydən, hətta sevdiklərindən belə asanlıqla imtina edir. Əvvəl əsla heç bir şeyə dəyişməyəcəklərini söyləyib uğrunda bir çox çətinliyə dözdükləri və şövqlə sarıldıqları hər şey bir anda onlar üçün bütün əhəmiyyətini itirir. Bunun səbəbi isə onların həqiqi mənada sədaqətli olmamalarıdır. Bəzən sadə bir mənfəət ümidi və ya önlərinə çıxan kiçik bir çətinlik belə onları asanlıqla sədaqətsizliyə sürüyür.

Sədaqəti ən mükəmməl şəkildə yaşayan insanlar isə möminlərdir. Onlar Allah`a iman edir və sonsuzadək Ona sadiq qalacaqlarına dair

söz verirlər. Dünya həyatında heç bir şeyin Allah`ın rizasını qazanmaqdan daha qiymətli olmayacağını bilirlər. Çünki sadiq olmağa ən layiq olanın yalnız uca Allah olduğunu qavramışlar. Onların sədaqətlərindəki bu qərarlılığa Quranda belə diqqət çəkilmişdir:

**Möminlər içərisində elələri də vardır ki, Allah`a etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi şəhid olmuş, kimisi də gözləyir. Onlar əsla dəyişməzlər ki. (Əhzab surəsi, 23)**
**O kəslər ki, Allah`a verdikləri vədi yerinə yetirir və əhdi pozmurlar. (Rəd surəsi, 20)**

Möminlərin Allah`a olan sədaqəti, eyni zamanda, onların dinə nə qədər şövqlə bağlandıqlarının da dəlilidir. Çünki heç bir dünya mənfəəti, maddi və ya mənəvi heç bir çıxar təklifi onları Allah`a olan bağlılıq və sədaqətlərindən döndərə bilməz. Yenə heç bir şey onlara Allah`ın rizasını qazanmaqdan daha sevimli və cazibəli gəlməz. Allah`a olan sədaqətləri onları daim şövqlə dinə xidmət etməyə və Allah`ın rizasını qazanacaq işlər görməyə yönəldər. Quranda inananların bu sədaqətini belə dilə gətirdikləri bildirilir:

**De: “Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür! (Ənam surəsi, 162)**

Allah onların bir ömür boyu şövqlə sədaqət göstərmələrinə qarşılıq onları mükafatlandıracağını bildirərək müjdələyir:

**Allah doğruları doğruluqlarına görə mükafatlandırsın, münafiqlərə də istəsə, əzab versin, yaxud onların tövbələrini qəbul buyursun. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! (Əhzab surəsi, 24)**

## Hər an Allah`ın rizasının ən çoxunu axtarmalarından...

Allah Quran ayələri ilə bütün insanlara hansı əxlaqdan və hansı həyat şəklindən razı olacağını bildirmişdir. Allah`ın bu əmrini ən gözəl şəkildə yerinə yetirənlər yalnız möminlərdir. İnsanların böyük əksəriyyəti isə Allah`ın bəyəndiyi həyat şəklindən xəbərdar olmalarına qarşı bunu göz ardı edirlər. Çünki bu insanların Allah`ın rizasını qazanmaq üçün hədəfləri yoxdur. Möminlərə isə Allah`ın rizasını və sevgisini qazanmaq hər şeydən əhəmiyyətlidir. Buna görə, Quranda bildirilən hər ayəyə ciddi şəkildə əməl edərlər. Bu mövzuda ciddi olmaları şövqlü olduqlarının sübutudur. Belə ki, Allah`ın rizasını qazanmaq üçün nəfslərinə çətin gələn vəziyyətlərdə azacıq da olsun qorxaqlıq göstərməzlər. Əksinə, ən çətin görünən işləri belə böyük şövqlə yerinə yetirərlər.

Möminlərin Allah`ın rizasını qazanmaq mövzusunda nə qədər şövqlü olduqlarını göstərən digər bir diqqəti cəlb edən davranışları da onların həmişə Allah`ın rizasının ən çoxunu axtarmalarıdır. Bunun mənası möminlərin bir çox seçimlə qarşı-qarşıya olduqları vəziyyətlərdə bunların arasından Allah`ın ən çox razı olacağını ümid etdiklərini seçmələridir. Bu mövzudakı ölçüləri isə Quran ayələri və vicdanlarıdır.

Allah Quranda inananlara ən xeyirli və Allah qatında məqbul olan həyat şəklini bildirmiş və beləcə, onlara Öz rizasının ən çoxunu qazanmağın yollarını göstərmişdir. Bundan başqa, möminlərin daxilən həyatlarının sonuna qədər bir an belə ara vermədən onlara ən doğru və ən xeyirli olanı göstərən vicdanları vardır. Vicdan insanı həmişə Allah`ı razı etmək üçün yönəldən bir nemətdir. Şövq sahibi olan insanlar da Qurana və vicdanlarının səslərinə ən gözəl şəkildə tabe olub həmişə Allah`ın ən razı olacağı şəkildə hərəkət edənlərdir.

Möminlərin bu mövzudakı şövqlərinə belə bir nümunə verə

bilərik: Allah "**Bəndələrimə de gözəl sözlər söyləsinlər...**" (İsra surəsi, 53) ayəsi ilə insanların sözün ən gözəlini söyləmələrini bildirmişdir. Yalnız gözəl söz söyləmək insanlara Allah`ın rizasını qazandırır. Ancaq sözün ən gözəlini söyləmək insana Allah`ın rizasının ən çoxunu qazandırır və Allah qatındakı əcrini artırır. Çünki Allah Quranda bu rəftarın daha xeyirli olduğunu bildirmişdir.

Bunun kimi, yenə Allah ayələrdə bir pisliyə misli qədər qarşılıq verilməsinə, ancaq bağışlamağın və qarşı tərəfə nümunəvi rəftar göstərib onu islah etməyin daha xeyirli olduğuna belə diqqət çəkmişdir:

> **Hər hansı bir pisliyin cəzası onun özü kimi bir pislikdir. Bununla belə, hər kəs bağışlasa və barışsa, onun mükafatı Allah`a aiddir. Həqiqətən, O, zalımları sevməz! (Şura surəsi, 40)**

Ayədəki ifadədən də aydın olduğu kimi, insana etdiyi pisliyin qarşılığını vermək Allah`ın rizasını qazanmağa uyğun davranışdır. Ancaq buna baxmayaraq, bağışlayıb əfv etmək Allah qatında məqbul sayılır və insana Allah`ın rizasının ən çoxunu qazandırır. İnsanın haqlı olduğu durumda da pislik gördüyü birisini qəzəbini boğub bağışlaması üstün əxlaq göstəricisidir. Çünki belə bir vəziyyətdə insan yalnız Allah`ın rizasını lap çox qazanmaq üçün nəfsinin istəklərinə üstün gəlir və gözəl bir səbir göstərib yumşaq davranır. Bu insan **"Əlbəttə, hər kəs səbir edib bağışlasa, bu, çox bəyənilən əməllərdəndir!" (Şura surəsi, 43)** ayəsi ilə də bildirildiyi kimi, səbir etməyin və bağışlamağın daha xeyirli olduğunu bilir.

Şövqlü insanların fərqliliyi həmişə ən xeyirli olan davranışları əsla qorxub zəiflik göstərmədən seçmələri ilə ortaya çıxır. Hər hansı mühitdə olmalarından asılı olmayaraq, onlar Allah`ın rizasının ən çoxunu axtarmaqda qərarlılıq göstərirlər. Müsəlmanların imanlarından qaynaqlanan bu şövqlərinə qarşılıq Allah onları qurtuluşa çatdı-

racağını, qaranlıqlardan nura çıxaracağını və doğru yola çatdıracağını bildirərək onlara müjdə verir:

**Allah Onun rizasını arayan şəxsləri əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir. (Maidə surəsi, 16)**

## Dinin mənfəətlərini həmişə öz mənfəətlərindən üstün tutmalarından...

Əvvəlki hissələrdə dediyimiz kimi, cahiliyyə cəmiyyətində insanların çoxu yaşadıqları cəmiyyətə, insanlarla olan əlaqələrinə, hətta ən yaxın dostlarına belə mənfəət gözü ilə baxırlar. Hər hansı bir çıxar mübahisəsi olduğunda isə heç tərəddüd etmədən öz mənfəətlərinə görə hərəkət edir və ən dəyər verdikləri insanları belə bir anda unudurlar. Çünki bu insanlar üçün öz mənfəətlərini qorumaq hər şeydən və hər kəsdən öndə gəlir.

Möminlər üçün isə durum çox fərqlidir. Əvvəlcə, onların şəxsi mənfəət kimi müstəqil məqsədləri yoxdur. Onlar üçün ancaq dinin və möminlərin mənfəətləri söz mövzusudur. Öz mənfəətləri onsuz da dinin və möminlərin mənfəətlərinin güdülməsi ilə ən mükəmməl şəkildə qorunmuş olur. Bunun xaricində dünyəvi mənada mənfəət qayğısı əsla çəkməzlər. Dünya həyatında onlar üçün ən əhəmiyyətli olan Allah`ın rizasını lap çox qazanmaqdır. Çünki onlara dünyada və axirətdə faydalı olan burada əldə etdikləri mənfəətlər deyil, Allah`ın rizasıdır. Allah rizası isə daima dinin və möminlərin mənfəətinə görə davranmaqdır. Odur ki, bunu dərk edən möminlər şövqlə hərəkət edir və həmişə dinin mənfəətlərini düşünürlər.

Burada "dinin mənfəətləri" dedikdə nəyin nəzərdə tutulduğunu açıqlamaq faydalıdır. Allah dinini bütün insanlara yol göstərici olaraq göndərmişdir. Dinin gərəklərini, Quran əxlaqının gözəlliyini, İs-

lamın insanlığa gətirdiyi maddi və mənəvi bütün faydaları digər insanlara bildirmək isə müsəlmanlara verilmiş məsuliyyətdir. Müsəlmanlar bu məsuliyyəti həm şəxsən özləri yaşayıb ətraflarındakılara nümunə olaraq, həm də şifahi və ya yazılı şəkildə insanlara izah edərək yerinə yetirirlər. Tək bir insanın axirətinin qurtuluşuna vəsilə olmaq müsəlmanlar üçün əhəmiyyətli ibadətdir. Odur ki, burada dinin mənfəəti kimi nəzərdə tutulan ana mövzulardan biri budur. Müsəlmanlar dini təbliğ edərkən və insanların maddi-mənəvi hüzura qovuşmasına, həmçinin əxlaqsızlığın, haqsızlığın və zülmün qarşısının alınmasında öz mənfəətlərini düşünməzlər.

Belə vəziyyətdə möminlər lazım gələrsə, öz haqlarından da imtina edərlər. Bəziləri müsəlmanların bu səmimi seçimləri səbəbi ilə avam davrandıqlarını düşünə bilərlər. Cəmiyyətdə tez-tez istifadə edildiyi kimi, "dünyanı qurtarmaq sənə qalıb?" kimi səhv bir məntiqlə düşünənlər vardır. Ancaq durum onların zənn etdiyi kimi deyil. Möminlər öz mənfəətlərindən imtina edərkən dünyaya aid hər hansı bir hesabı düşünməzlər. Onlar etdikləri fədakarlığın qarşılığını Rəbbimizdən daha gözəli ilə gözləyirlər. Bu səbəblə, böyük şövqlə gözəl əxlaqı təbliğ edir, insanları əbədi qurtuluşa dəvət edirlər. Allah onların şövqlü qərarlılığına qarşılıq olaraq onlara imtina etdiklərindən daha xeyirlisini verəcəyini müjdələmişdir. Dolayısilə, öz şəxsi mənfəətlərini bir kənara qoyub dinin mənfəətlərini güdən insan dünya və axirətdə öz adına ən çox faydanı əldə etmiş olur. Çünki göstərdiyi şövqlü davranışı ilə həm Allah`ın rizasını qazanır, həm də ayədə bildirildiyi kimi, dünya və axirətdə gözəl həyatı ümid edir.

**Mömin olub yaxşı işlər görən kişi və qadına xoş həyat nəsib edəcək və etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik (Nəhl surəsi, 97)**

Möminlərin bu mövzudakı şövqlü davranışlarına gündəlik həyatın bir çox mərhələsində rast gəlmək mümkündür. Məsələn, qazanc

əldə etmək üzrə olan mömin cəmiyyətə və insanlara fərqli bir yöndə faydası olacağını görsə, heç tərəddüd etmədən öz işini bir kənara buraxıb daha təcili olan, ancaq özünə dünyaya görə heç bir mənfəət təmin etməyən xeyirli bir işə yönələr. Yaxud öz ehtiyacları yönündə xərcləmək istədiyi pulu Quran əxlaqının izah edilməsi baxımından daha faydalı və səmərəli olacağını düşündüyü xeyir işə yönləndirər. Budur, şövq sahibi mömin belə bir hadisə qarşısında da öz işlərini bir kənara buraxıb heç bir çətinlik duymadan dinin xidmətinə qaçır.

Belə vəziyyətdə insanın şövqlə öz haqlarından imtina etməsi bütün bunların özünə qazanc olduğunu bilməsindən qaynaqlanır. Bəlkə, maddi baxımdan əldə edəcəyi çoxlu gəliri göz ardı edər, hətta bəlkə də maddi itkiyə uğrayar, lakin hər şeydən önəmlisi tək qazanc olan Allah`ın rizasını qazanar. Ayrıca, mömin malı verənin də, alanın da Allah olduğunu bilir. Ona ruzi verən, malına bərəkət verən və ya qazancını artıran Allah`dır. Dolayısilə, iman edən insanı bu mövzuda heç nə narahat etməz. Allah Quranın **"Yaxşı işlər görənləri cənnət və daha artıq mükafat gözləyir..." (Yunis surəsi, 26)** ayəsi ilə möminlərin göstərdiyi gözəl əxlaqa və şövqlü cəhdə qarşılıq onlara daha gözəlinin olduğunu bildirmişdir.

Bunu da ifadə etməliyik ki, möminlərin dinin mənfəətlərini öz mənfəətlərindən önəmli tutmaları yalnız maddi mövzularda əsaslı deyil. Bəzən mənəvi yöndə fədakarlıq etmələri də söz mövzusu ola bilər. Məsələn, yorğun, ac və ya yuxusuz olduqları bir vaxtda xidmətə yönəlmələri lazım gələ bilər. Möminlər belə bir vəziyyətdə heç tənbəllik etmədən, ağır tərpənmədən şövqlə dərhal hərəkətə keçərlər. Çünki onlar maddi və ya mənəvi fədakarlıq etməyi bir çətinlik deyil, Allah`ın özləri üçün yaratdığı xüsusi fürsət kimi qiymətləndirirlər. Bunlar Allah`a yaxınlaşmaq və Onun rizasını qazanmaq üçün can atan möminlərin şövqlə gözlədiyi mühitlərdir. Bu səbəblə, öz ehtiyaclarını qarşılaya bilmədiklərinə görə, heç narahat

olmadan ən faydalı olan xidmətə doğru yönələrlər. Şübhə yoxdur ki, bu mövzuda göstərdikləri şövq və qərarlılıq imanlarının və dinə səmimi şəkildə sarıldıqlarının göstəricilərindəndir.

## Gözəl əxlaqı yaşamaqda qərarlılıq göstərmələrindən...

Dünya həyatında özünə Allah`ın rizasını qazanmağı məqsəd bilən adam Allah`ın bəyəndiyi gözəl əxlaqı ən gözəl şəkildə yaşamaq mövzusunda da böyük şövq göstərər. Allah`a könüldən iman etməyən və Onun rizasını qazanmaq üçün daxilən hər hansı bir şövq və ya istək duymayanlar üçün isə bu, böyük bir çətinlikdir. Çünki gözəl əxlaq vicdanı və iradəni ən mükəmməl şəkildə istifadə etməyi tələb edir. Qəlbində imanın şövqünü və həyəcanını hiss etməyən insanlar bu vicdan və iradə həssaslığını göstərə bilməzlər. Bu səbəblə də gözəl əxlaqı tam mənası ilə yaşaya bilməzlər.

Dinə şövqlə sarılan möminlər isə Allah`ın Quranda bildirdiyi əxlaq modelini heç çətinlik çəkmədən böyük bir zövqlə yaşayırlar. Bəzən onların da nəfslərinə çətin gələn vəziyyətlər olur, ancaq onlar buna baxmayaraq, nəfslərini məğlub edib Allah üçün gözəl əxlaqda qərarlılıq göstərir və bunu bacardıqlarına görə həzz alırlar.

Bəzən çətinlik və ya sıxıntı ilə qarşılaşır, lakin cəsur davranırlar. Yaxud qəzəbləndirici hadisə qarşısında gözəl şəkildə səbir göstərirlər. Pis hərəkətə yaxşılıqla cavab verirlər. Haqlı olduqları halda, haqsızlığa qarşı yumşaq davranmağı, bağışlamağı seçirlər. Ən çətin və ya ən sıxıntılı anlarda belə öz haqlarından sevə-sevə imtina edir, böyük bir şövqlə başqalarını önə çəkirlər. İnananlar üçün fədakarlıq etməyi zövqlə qəbul edirlər. Səhv etdiklərinin fərqində olduqlarında bu vəziyyəti əvəz etmək üçün canla-başla səmimi şəkildə cəhd göstərirlər. Özləri ehtiyac içində olduqları halda, Allah`ın əmri olduğu üçün əllərindəkini sevə-sevə yetimlərə, yoxsullara, yolda qa-

lanlara və digər ehtiyac içərisində olanlara verirlər. Öz mənfəətlərinin əleyhinə də olsa, heç vaxt ədaləti əldən vermir, şahidlikdə dürüst olurlar. Kimsənin qüsurunu araşdırmaz, kimsənin arxasından danışmazlar. Hamısından önəmlisi isə bütün bu gözəl əxlaq nümunələrini həyatlarının sonuna qədər böyük bir səbir və qərarlılıqla göstərərlər.

Gözəl əxlaqı yaşamaq ancaq imanın gətirdiyi şövqlə mümkündür. Şübhəsiz ki, müsəlmanların da nəfsləri ilə mücadilə apardığı və ya şeytanın vəsvəsələri ilə qarşı-qarşıya qaldığı anlar olur. Ancaq buna baxmayaraq, vicdanlı qullar Allah`a olan bağlılıqlarından və Ona yaxınlaşmaq üçün duyduqları şövqə görə Allah`ın bəyəndiyi əxlaqı yaşamaqda qərarlılıq göstərərlər.

## Mallarını və canlarını Allah`a təslim etmələrindən...

Mal və can anlayışları cahiliyyə cəmiyyətinin ən əhəmiyyət verdiyi və bəlkə də həyatlarının əsl məqsədi halına gətirdikləri iki əhəmiyyətli mövzudur. Həyatları boyunca bu iki mövzuda etibar əldə edə bilmək və üstünlük qazanmaq üçün yaşayırlar. Necə ki, Quranda mal yığıb cəmiyyətdə etibar qazanmaq insanların çoxunda həvəs olduğuna belə diqqət çəkilmişdir:

**Qadınlar, uşaqlar, qızıl-gümüş yığınları, yaxşı cins atlar, malqara və əkin yerləri kimi nəfsin istədiyi və arzuladığı şeylər insanlara gözəl göstərilmişdir. Bunlar dünya həyatının keçici zövqüdür, gözəl dönüş yeri isə Allah yanındadır. (Ali-İmran surəsi, 14)**

Quranın **"Əlbəttə, siz malınız və canınızla imtahan ediləcəksiniz..." (Ali-İmran surəsi, 186)** ayəsi ilə bütün bunların insanlar üçün sınaq mövzusu edildiyi bildirilmişdir. Ancaq bu həqiqəti göz ardı edən cahiliyyə cəmiyyəti bu həvəs ucbatından mallarına və canlarına

bağlı olurlar. Ən qorxduqları şey sahib olduqları və ya öyündükləri mala zərərin toxunmasıdır. Çünki bu vəziyyətdə həyatdakı əsl məqsədlərini itirərlər. Buna görə, bütün həyatlarını mallarını və canlarını qorumağa və bu yolda mənfəət əldə etməyə həsr edirlər. Bu mövzudakı qərarlı davranışları isə onların dünya həyatını və onun cazibəli bəzəkləri olan mal və can kimi dəyərləri böyük cəhalətlə Allah`ı razı etməkdən daha əhəmiyyətli görmələrindən qaynaqlanır.

Möminlər Allah`ın rizasını və cənnətini qazanmaq üçün cahiliyyənin dəyər verdiyi şeylərdən uzaqdırlar. Çünki onların əsl məqsədi mal və ya mövqe baxımından dünya həyatında etibar qazanmaq deyil, Allah`ın rizasını qazanmaqdır. İman edənlər Allah`a qulluq etmək üçün yaradıldıqlarını və dünya həyatında mal və canları ilə sınandıqlarını bilirlər.

Bununla yanaşı, inanclı bir insan sahib olduğu hər nemətin əsl sahibinin Allah olduğunu bilir. Allah bütün nemətləri onsuz da dünya həyatında istifadə etməsi üçün özünə bir əmanət olaraq vermişdir və dilədiyi anda hamısını geri almağa qadirdir. Çünki Allah kainatdakı hər şeyin hakimidir. İnsanın canı, yəni vücudu onsuz da altmış və ya yetmiş il sonra çürüyüb torpağa qarışacaq, malı isə axirətdə ona heç bir şəkildə fayda verməyəcək. Əgər insan əlindəki imkanları Allah`ın rizasını qazanmaq üçün istifadə edərsə, dünya və axirətdə də gözəlliklə qarşılığını görəcək. Odur ki, bu həqiqətin fərqində olan möminlər mallarını və canlarını Allah yolunda istifadə etmək üçün daha öncədən Allah`a təslim etmişlər və bu da imanlarının şövqündən qaynaqlanır. Quranda bu durum belə izah edilir:

**Doğrudan da, Allah möminlərdən cənnət müqabilində onların canlarını və mallarını satın almışdır… (Tövbə surəsi, 111)**

Ayənin davamında isə möminlərə sövdələşdikləri alış-verişə görə sevinmələri xatırladılmışdır. Bu səbəblə, möminlər bu müjdənin se-

vinc və şövqü ilə hərəkət edərlər. Lazım gəldiyində mallarını Allah`ın rizasını qazana biləcəkləri xeyirli işlərdə heç düşünmədən sevə-sevə xərcləyərlər. Canları ilə də sonadək dinə xidmət etməyə və Allah`ın rizasını qazandıran saleh əməllər görməyə çalışarlar. Əlbəttə ki, Allah yolunda lazım gəldiyində mallarına və ya canlarına zərər gələ biləcəyini də bilirlər. Ancaq onlar bunu onsuz da əvvəldən gözə almışlar. Çünki onlar bunu qazanc və gözəllik olaraq görürlər.

Quranda inananların Allah`ın rizasını qazanmaq üçün qarşılaşacaqları hər çətinliyi sevinclə qarşıladıqlarından və bunları bir gözəllik olaraq gördüklərindən belə bəhs edilmişdir:

**De: "Allah`ın bizim üçün yazdığından başqa bizə heç bir şey üz verməz. O, bizim ixtiyar sahibimizdir. Buna görə də möminlər yalnız Allah`a təvəkkül etsinlər!" De: "Biz Allah`ın Özü tərəfindən və ya bizim əlimizlə sizi əzaba düçar etməsini gözlədiyimiz halda, siz bizlərə ancaq iki yaxşı işdən birinin gəlməsinimi gözləyirsiniz? Doğrusu, biz də sizinlə birlikdə gözləməkdəyik!" (Tövbə surəsi, 51-52)**

Budur, ayədə bildirilən möminlərin bu sözü şövqlərinin gücündən xəbər verir. Möminlərin mal və canlarını şövqlə Allah`a təslim etdiklərinə dair Quranda Peyğəmbərimizin (s.ə.v.) dövründə yaşanan bir nümunə misal verilmişdir. Peyğəmbər əfəndimizin (s.ə.v) dövründə döyüşə getməyi ürəkdən arzu edən, lakin minik üçün hər dəfə Peyğəmbərdən (s.ə.v): *"Sizi mindirəcək bir şey tapa bilmirəm"*, - sözlərini eşidib geri dönən möminlərin vəziyyəti belə bildirilmişdir:

**(Döyüşə getməyə minikdən ötrü) yanına gəldikdə: "Sizin minməyiniz üçün bir heyvan tapmıram", - deyərkən (cihad yolunda) sərf etməyə bir şey tapa bilmədikləri üçün kədərdən gözlərindən yaş axa-axa geri dönənlərdə heç bir günah yoxdur! (Tövbə surəsi, 92)**

Bu nümunə saleh bir müsəlmanın Allah yolunda malını və canını sevə-sevə ortaya qoya bildiyinin və bu yolda istək duyduğunun açıq göstəricisidir. Əlbəttə, hər mühitə, hər dövrə görə mömінin göstərməsi lazım olan xidmətin şəkli də dəyişir. Məsələn, Peyğəmbərimizin (s.ə.v) dövründəki mühitdə müsəlmanların haqlarının, həqiqətən, müdafiə olunması lazım gəlmişdir. Ancaq içində yaşadığımız dövr fikri mübarizə tələb edir. Odur ki, müsəlmanların şövqlə etməyi lazım olan xidmət fikri sahədə olmalıdır. Quran əxlaqının yaşanması və gözəlliklərinin insanlara izah edilməsi mövzusunda ciddi fədakarlıqlar göstərən hər insan Rəbbimizdən bunun gözəl nəticəsini ümid edə bilər. Quranda dünyada sahib olduqları hər şeyi Allah üçün şövqlə ortaya qoyanların axirətdə alacaqları gözəl qarşılıq belə bildirilmişdir:

**Kimdir o kəs ki, Allah yolunda könül xoşluğu ilə borc versin, O da onun əvəzini qat-qat artırsın?! Onu həm də çox qiymətli bir mükafat gözləyir! (Hədid surəsi, 11)**

## Xeyirlərdə yarışıb önə keçmələrindən

**Onlar Allah`a, axirət gününə inanır, yaxşı işlər görməyi əmr edir, pis əməllərdən çəkindirir və xeyirli işlər görməyə tələsirlər. Onlar əməlisaleh şəxslərdəndirlər. (Ali-İmran surəsi, 114)**

Allah`ın Quranda **"...Elə isə yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalışın..." (Maidə surəsi, 48)** əmri ilə diqqət çəkilən yarış cahil cəmiyyətlərdə yaşandığı şəkildə bir-birini əzmək yarışı deyil, tam əksinə, gözəllik və xeyirləri artırmaq yarışıdır. Çünki möminlərin yarışmaqdakı məqsədləri dünyəvi çıxar əldə etmək və ya insanlar arasında üstünlük meydana gətirmək deyil. Onlar yalnız Allah`ın əmrlərini yerinə yetirməkdə, Onun bəyəndiyi əxlaqı yaşa-

maqda və Rəbbimizi razı etməkdə yarışarlar.

Bu yarış Allah qorxularının və imanlarının gərəyidir. Çünki insanın iman mövzusundakı səmimiyyəti və ixlası Allah`ın rizasını qazanmaq üçün göstərdiyi cəhdlə ölçülür. Allah`a və axirətə iman edən insan daha əvvəl də ifadə etdiyimiz kimi, Allah`ın rizasını ən çoxu ilə qazanmağı və Allah`a ən yaxın insan olmağı hədəf seçər. Allah`ın özündən razı olmasını, özünə rəhmət etməsini və cənnətinə layiq görməsini istər. Bu səbəblə, əlindən gəldiyi qədər cəhd edər. Ağlından, vicdanından və gücündən ən yaxşı şəkildə istifadə edib Quran əxlaqını və dinin hökmlərini ən mükəmməl şəkildə yaşamağa çalışar. Necə ki, Quranda möminləri Allah qatında önə keçirən ünsürün xeyirlərdə yarışmaları olduğu bildirilmişdir:

**Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər. (Muminun surəsi, 61)**

Ayrıca, **"Biz (Zəkəriyyanın) duasını qəbul buyurduq, ona Yəhyanı bəxş etdik və zövcəsini (doğmağa) qabil bir hala gətirdik. Onlar xeyirli işlər görməyə tələsər, ümid və qorxu ilə Bizə ibadət edirdilər. Onlar Bizə müti idilər" (Ənbiya surəsi, 90)** ayəsi ilə hz. Zəkəriyyanın davranışı nümunə verilmiş və xeyirlərdə yarışmağın peyğəmbərlərdə də görünən bir xüsusiyyət olduğuna diqqət çəkilmişdir. Allah`ın Quranda həyatlarından nümunə verdiyi peyğəmbərlər də həyatlarını Allah`ın rizasını qazanmaq mövzusunda yarış içində keçirmişlər. Özlərinə peyğəmbər əxlaqını nümunə götürən möminlər də eyni şəkildə onların Allah`ın rizasını qazanmaq mövzusunda göstərdikləri bu yolu izləyərlər.

Möminlərin xeyirlərdə yarışmalarının bir başqa səbəbi də dünya həyatının çox qısa, ölümün çox yaxın olduğunu düşünmələridir. Hər an ölə biləcəklərini və Allah`ın rizasını lazımınca qazanmadıqlarından dolayı axirətdə peşman olacaqlarını bilirlər. Çünki axirətə keç-

dikdən sonra insanın bir daha dünyaya geri dönüb xeyirlərdə yarışması, saleh əməllər görməsi mümkün deyil. Odur ki, müsəlmanlar daha çox xeyir qazanmaq üçün zamanla yarışarlar. Dünya həyatında özlərinə verilən vaxtda çoxlu xeyirli iş görərlər. Bu yöndə qarşılarına çıxan hər işi şövqlə öz üzərinə götürər və hər fürsəti ən yaxşı şəkildə qiymətləndirməyə çalışarlar. Saleh müsəlmanların bir duası Quranda belə ifadə edilmişdir:

> **Və o kəslər ki: "Ey Rəbbimiz, bizə zövcələrimizdən və uşaqlarımızdan gözümüzün işığı olacaq övladlar ehsan buyur və bizi müttəqilərə imam (rəhbər) et!" – deyərlər. (Furqan surəsi, 74)**

Ayədə göründüyü kimi, inananların Allah`a olan "bizi təqva sahiblərinə öndər et" şəklindəki duaları da onların xeyirlərdə yarışmaq mövzusundakı şövqlərini göstərir.

Müsəlmanlar şövq və qərarlılıqla Allah`ın **"(İşlərini) qurtaran kimi (Allah yolunda) çalış!" (İnşirah surəsi, 7)** əmrini ən gözəl şəkildə yaşayırlar. Boş vaxt keçirməzlər və işlərini kafi görməyib xeyirlərdə yarışarlar. Dünyada keçirdikləri hər dəqiqənin hesabını verəcəklərini, həmçinin vicdanlarına tabe olmadıqları və ya daha xeyirlisi var ikən mənasız iş gördükləri hər ana görə məsuliyyət daşıdıqlarını unutmazlar. Bu səbəblə, öz ehtiyaclarından artıq qalan vaxtlarını davamlı olaraq xeyirli axtarışda keçirərlər.

Allah`ın rizasını qazanmaq üçün vücudi və ya zehni baxımdan yorulmağın insana böyük qazanc olduğunun fərqindədirlər. Bu səbəblə, yorğunluğu sevinc və nəşə ilə qarşılayırlar. Onlar bunu axirət üçün önəmli bir fürsət bilir və şövqlə Allah üçün yorulmağa, bir işi bitirib dərhal Allah`ın rizasını qazandıran başqa işə yönəlməyə davam edərlər. Çünki onlar dünya həyatında göstərdiyi bu ciddi cəhdin **"Mömin olub axirəti istəyən və onun uğrunda (can-başla)**

**çalışanların zəhməti qəbul olunar" (İsra surəsi, 19)** ayəsində də bildirildiyi kimi, ən gözəl şəkildə qarşılığını görəcəklərini bilirlər.

Belə saleh qullar Allah`ın izni ilə dünyada ikən dayanmadan yarışıb önə keçmələrinə qarşılıq axirətdə sonsuzadək ən gözəl məkanlarda yerləşəcək və özlərinə nemətlər veriləcəkdir:

> **Və öndə olanlar. Onlar öndədirlər! Onlar yaxınlaşdırılmış kimsələrdir. Onlar Nəim cənnətlərində olacaqlar. Çoxu əvvəlkilərdən, bir azı da axırıncılardandır. Bəzənmiş taxtlar üstündə qərar tutacaq, onlara söykənib bir-biri ilə qarşı-qarşıya əyləşəcəklər. (Vaqiə surəsi, 10-16)**

Allah dünya həyatında Allah`ın rizasını qazanmaq üçün yorulmağa davam edənlərə axirətdə heç bir yorğunluğun toxunmayacağını da müjdələmişdir:

> **Onlara orada heç bir yorğunluq üz verməz. Onlar oradan çıxan da deyillər. (Hicr surəsi, 48)**

> **Elə bir Rəbb ki, Öz lütfü ilə bizi iqamətgahda yerləşdirdi. Orada bizə nə bir yorğunluq üz verəcək, nə bir məşəqqət toxunacaqdır! (Fatir surəsi, 35)**

## Çətinlik və sıxıntılara qarşı səbir etmələrindən...

Allah **"Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq üçün ölümü və həyatı yaradan Odur..." (Mülk surəsi, 2)** ayəsi ilə dünya həyatının bir imtahan yeri olduğuna diqqət çəkmişdir. Həqiqətən də dünya həyatında meydana gələn, insanın lehinə və ya əleyhinə kimi görünən müxtəlif hadisələr insanların həqiqi xarakterinin bilinməsi baxımından olduqca əhəmiyyətlidir. Xüsusilə çətinlik anları insanların səmimiyyətlərini ortaya qoyan ən əhəmiyyətli anlardır.

Möminlərin diqqəti cəlb edən xüsusiyyətlərindən biri isə çətin anlarda və firavanlıqda da eyni xarakteri, eyni səmimiyyəti və şövqü sərgiləmələridir. Bunun önəmli səbəbi isə onların çətinlik anlayışına olan fərqli baxış yönləridir. Daha əvvəl də ifadə etdiyimiz kimi, onlar çətin mühitləri Allah`a olan bağlılıqlarını və imanlarının gücünü isbat etmək üçün fürsət kimi qiymətləndirirlər. Bunun qəlbində xəstəlik olanlar ilə Allah`a könüldən iman edənləri bir-birindən ayırmaq üçün Allah`ın xüsusi olaraq yaratdığı bir vəziyyət olduğunu bilirlər. Bu səbəblə, çətinlikləri sıxıntı olaraq deyil, əksinə, nemət və Allah`a yaxınlaşmaq üçün bir yol olaraq görürlər. Qarşılarına çıxan bütün çətinliklərə **"Mətanətlə səbir et!" (Məaric surəsi, 5)** və **"Rəbbin yolunda səbir et" (Muddəssir surəsi, 7)** ayələrində də bildirildiyi kimi səbir edir və Allah`a təvəkkül edirlər.

**"Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər. Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir..." (Bəqərə surəsi, 286)** ayəsi ilə xəbər verildiyi kimi, Allah`ın güclərinin çatdığından artıq çətinlik yükləməyəcəyini bilməyin arxayınlığını və rahatlığını yaşayırlar. Əgər başlarına bir çətinlik gəlsə, bilərlər ki, bu, onların güclərinin çatdığı, yenə biləcəyi və səbirlə qarşılaya biləcəyi hadisədir. Buna görə də qarşılarına hər nə qədər çətin hadisə çıxsa da, onlar bu çətinliklə şövqlə mübarizə aparır və hər bir halda Allah`a qarşı təslimiyyətli davranış göstərirlər.

Bununla yanaşı, bütün inananların çətinliklə qarşılaşdığını bilirlər. Allah`ın ayədə vəd etdiyi kimi, əvvəlki qövmlərin qarşılaşdığı hadisələr mütləq öz başlarına da gələcəkdir. Bu həqiqəti bilən mömin hələ bu çətinliklərlə qarşılaşmadan öncə özünü bunlara hazırlayır. İstənilən halda Rəbbimizə sadiq qalacağına, səbir və təvəkküldə qərarlı olacağına və Allah`dan razı olacağına dair Allah`a söz verər. **"…Allah`a verilən əhd barəsində mütləq sorğu-sual olunacaqdır!" (Əhzab surəsi, 15)** ayəsinin gərəyi kimi də əhdini mütləq ye-

rinə yetirər. Dözülməz aclıq, kasıblıq, qorxu, yaralanmaq və hətta ölüm belə olsa, bundan razı olur və Rəbbimizə qarşı şükürlü davranır. Minlərlə çətinlik ard-arda gəlsə də, bütün həyatı dayanmadan bu çətinliklərin içərisində də keçsə də, o, yenə də bunu bir gözəllik olaraq qiymətləndirir. Çünki bu dünyadakı bir neçə on illik çətinliyə Allah üçün gözəl səbir göstərdiyi təqdirdə sonsuzadək bir anlıq belə heç bir çətinlik yaşamayacağını bilir. Allah`ın diləməsi ilə bu şövqlü davranışı ona nemətlərin ən gözəli olan Allah`ın rizasını, rəhmətini və cənnətini qazandırar. Allah bir ayəsində iman edənləri çətinliklərlə sınayacağını belə xəbər vermişdir:

**Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can və məhsul qıtlığı ilə imtahan edərik. Səbir edən şəxslərə müjdə ver! (Bəqərə surəsi, 155)**

Ancaq bu mövzuda unudulmaması gərəkən bir xüsus yenə vardır. Möminlərin çətinliklərə səbir etmələri cahiliyyə cəmiyyətinin yaşadığı səbir anlayışından fərqlidir. Çünki cahiliyyə insanları səbir etməyi qarşılaşdıqları çətinliklərə dözmək kimi qiymətləndirirlər. Möminlər üçün çətinliklər əsla dözülməsi deyil, mübarizə ilə aşılması lazım olan hadisələrdir. Bu səbəblə, çətinlikləri aşmaq və firavanlığa qovuşmaq üçün ağıllarından və maddi-mənəvi bütün imkanlarından ən gözəl şəkildə istifadə edib qarşılaşdıqları çətinliyə həll tapmağa çalışarlar. Digər tərəfdən də özlərinə güc verməsi və qarşılaşdıqları çətinlikləri yüngülləşdirməsi üçün Allah`dan kömək diləyərlər. Quranda möminlərin bu dualarına belə yer verilmişdir:

**..."Ey Rəbbimiz, unutduqda və ya yanıldıqda bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə yükləyib daşıtdırma! Bizi əfv edib bağışla, bizə rəhm et! Sən bizim ixtiyar sahibimizsən. Kafirlərə qələbə çalmaqda bizə kömək et! (Bəqərə surəsi, 286)**

Budur, möminlərin çətinliklər qarşısında göstərdiyi bu gözəl əxlaq, səmimi cəhd və səbir onların şövqünü göstərən ən əhəmiyyətli əlamətlərdən biridir. Allah`a və axirətə olan inanclarının gücü onların çətinliklər qarşısında heç bir şəkildə qorxmadan sonadək şövqlə mübarizə aparmaqlarına vəsilədir.

## Çətinliklər qarşısında daha da şövqlənmələrindən...

Möminlərin iman və şövqlərini göstərən ən əhəmiyyətli dəlillərdən birinin də çətin vaxtlarda göstərdiyi davranış olduğuna toxunduq. Möminlərin bu mövzuda diqqəti cəlb edən bir başqa xüsusiyyəti də çətin durumlarda qorxmadıqları və şövqlərini daha da artırmalarıdır. Bunun əhəmiyyətli səbəbi bu vəziyyətin Allah`ın bir vədi olduğunu bilmələridir.

Allah "**Sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlməmiş behiştə daxil olacağınızımı güman edirsiniz?...**" **(Bəqərə surəsi, 214)** ayəsi ilə keçmişdə yaşamış möminlərin sınandığı çətinliklərlə imtahan edilmədən insanların cənnətə girə bilməyəcəklərini bildirmişdir. Dolayısilə, möminlərin çətinlik və sıxıntılarla qarşılaşmaları Allah`ın dəyişməz qanunu və dinin gərəyidir. Digər bir sözlə, bu şəkildə sınanmaları möminlərin əhəmiyyətli xüsusiyyətidir.

Allah`ın razı olduğu insan ola bilmək insanın Quranda bildirilən ayələrin hamısını birdən qarşılaşdığı hadisələrdə tətbiqi ilə mümkündür. Bu səbəblə, möminlər Allah`ın peyğəmbərlərə, onlarla birlikdə olan möminlərə və tarix boyunca gəlib-keçmiş bütün inananlara yaşatdığı bu ayələrin öz üzərilərində də təcəlli etməsini istəyərlər. Əlbəttə, özlərini bilərək çətinliyə atmazlar, lakin çətinliklə qarşılaşdıqda bu, onların şövqlərini daha da artırar və imanlarını daha da gücləndirər.

Möminlərin axirətdə yüksək mövqe qazanmaq ümidi onların şöv-

qünün başqa bir səbəbidir. Çünki çətinliklərə rəğmən, Allah`a sadiq qalır, ruhdan düşmədən: **“Bu, Allah`ın və Peyğəmbərinin bizə olan vədidir. Allah və Peyğəmbəri düz buyurmuşlar!” (Əhzab surəsi, 22)** - deyirlər.

## Allah`ın rizasını ümid etdikləri hər işi sevinc və nəşə ilə yerinə yetirmələrindən...

Möminlərin şövqlərini ifadə edən bir başqa xüsusiyyətləri də Allah`ın rizasını qazanmaq və dinə xidmət etmək məqsədi ilə etdikləri hər işi sevinc və nəşə ilə yerinə yetirmələridir. Onların yaşadığı bu nəşə iman nəşəsidir. İman nəşəsi qəlblərində gerçək imanı yaşamayanların heç bir şəkildə təqlid edə bilmədiyi, daxildən gələn səmimi bir nəşədir. Çünki bu, iman etməkdən qaynaqlanan, Allah`ın rizasını, rəhmətini və sonsuz cənnət həyatını ümid etməyin verdiyi nəşədir.

Allah`a və axirətə qəti bilgi ilə iman etməyən insanlar belə bir sevinci yaşaya bilməzlər. Onlar ancaq özlərinə mənfəət verən mövzularda nəşəli olurlar ki, bu da, əslində, cahiliyyə insanlarının yaşadığı nəşə anlayışının bir bənzəridir. Çünki cahiliyyə cəmiyyətində insanlar ancaq mənfəət ümid etdikləri işlərə görə sevinirlər. Ancaq bu, keçib-gedən bir nəşədir. Mənfəət itkisi kimi bir vəziyyət nəşənin itirilməsi üçün kifayətdir.

İmanları güclü olmayanlar Allah rizası üçün nəfslərinə ağır gələn işdə bütün nəşələrini itirərlər. Bundan başqa, bu işi könülsüz görüb istəksiz və şövqsüz olduqlarını büruzə edərlər. Çünki onlar maddi qazanc görmədikləri işi boşa keçən vaxt kimi qiymətləndirirlər. Allah rizasını qazanmağın ən gözəl və ən qiymətli olduğunu düşünməzlər. Buna görə, sanki ağır yüklənmiş kimi davranarlar. Odur ki, möminlərin şövqündəki fərqlilik də bu nöqtədə ortaya çıxır. İş çətin və əziyyətli olsa da, onlar nəşələrindən heç bir şey itirməzlər. Çünki

möminlər Allah`a könüldən, yəni istəyərək və sevərək qulluq edərlər. Onun rizasını qazandıran saleh əməli də, eyni şəkildə, könüldən gələn şövqlə yerinə yetirərlər. Budur, bu şövq onların davranışlarına sevinc və nəşə kimi əks olunur.

## Qəlbində xəstəlik olanların şövqsüzlüyündən təsirlənməmələrindən...

Kitabın əvvəlində hər insanın Allah`a olan imanının və yaxınlığının eyni olmadığına toxunub Allah`a könüldən bağlananlar kimi, qəlbində xəstəlik olanlara da diqqət çəkmişdik. Möminlərin arasında yaşadıqları halda, həqiqətdə iman etməyən bu insanlar dilləri ilə iman etdiklərini deyir, lakin həyatda heç bir hərəkəti ilə bu sözlərini təsdiq etməzlər. Zəif imanları səbəbi ilə Allah`ı razı etmək və dini gərəyi kimi yaşamaq üçün son dərəcə şövqsüz olurlar. Onlar həm sözləri, həm də davranışları ilə iman edənlərin şövqünü qırıb onları ruhdan salmağı istəyərlər.

Ancaq həqiqətən inananlar nə bu sözlərdən, nə də davranışlardan təsirlənərlər. Çünki onlar Allah`ın **"Sən səbir et. Şübhəsiz ki, Allah`ın vədi haqdır. Qoy, qəti inanmayanlar səni etinasızlığa sövq etməsinlər" (Rum surəsi, 60)** ayəsi ilə bildirdiyi kimi, bəzi insanların şövqsüzlüyünün qəti inanmamalarından qaynaqlandığını bilirlər. Bu səbəblə, şövqlərini itirmirlər və onların dinə xidmət etmədiklərini, Quran əxlaqının yayılması üçün heç bir səy göstərmədiklərini gördükcə möminlərin mübarizə əzmi daha da artır. Həm onlara nümunə olub Quran əxlaqını xatırlatmaq, həm də özləri doğru olanı ən gözəl şəkildə yaşamaq üçün daha da şövqlənərlər.

Dəyərli böyük İslam alimi Bədiüzzaman Səid Nursi Allah rizası üçün səmimi cəhd edənlərin şövqsüz insanlara necə yanaşdığını bir sözündə belə ifadə etmişdir:

"Başqalarının füturu (zəifliyi) və çəkilməsi əhli-himmətin şövqünü, səyini çoxaltmağa səbəbdir. Çünki gedənlərin vəzifələrini bir

dərəcə yerinə yetirməyə özünü məcbur bilər və bilməlidir". (Qastamonu əlavəsi, səh 37)

Bədiüzzamanın yuxarıdakı sözü ilə ifadə etdiyi kimi, qəlbində xəstəlik olanların dinə xidmət etməkdən qaçdığı hər şeydə saleh möminlər dinə daha böyük şövqlə xidmət edərlər.

Şövqsüz insanların Quran əxlaqını yaşamaqda və insanlara təbliğdə göstərdikləri zəiflik üzərilərində böyük məsuliyyət olduğunu bir daha xatırladır. Zəif insanların gözəl əxlaqı yaşamaq istəmədiyini görmək möminlərin daha da əxlaqlı olmalarına vasitə olur. Qəti iman etməyənlərin Allah`a və elçilərinə itaətsizliklərinə qarşı inananlar: "Eşitdik, itaət etdik", - deyərlər.

Qəlbən iman etməyənlər başqa mövzularda da möminlər üçün (istəmədən də olsa) xeyirli olurlar. Amma heç bir şəkildə şövqsüzlükləri ilə möminlərə mənfi təsir edə bilməzlər. Çünki müsəlmanlar şövq və imanlarını insanlara görə deyil, Allah`ın rizasını qazanmağa görə nizamlayırlar.

Bundan başqa, möminlər onların zəif imanlarını görməsələr də, yenə də Allah`ın əmrlərini şövqlə yerinə yetirərlər. Ancaq onları görmək möminlərə bir növ xatırlatmadır və bunu xeyir kimi düşünürlər. İmanı zəif olanlar bir tərəfdən axirəti görməzlikdən gəlir, bir tərəfdən də möminlərin şövqünü artırır və onları təşviq edir.

# İNANANLARIN HƏYƏCANI NECƏ OLUR?

Həyəcan anlayışı Quran əxlaqından uzaq cəmiyyətlərdə bəzi hadisələr qarşısında stress, təlaş, daxili sıxıntı kimi duyğuları ifadə edir. Bu həyəcan insana həzz deyil, çətinlik və sıxıntı verir. Müsəlmanın həyəcanı isə Allah`ın sənətinə duyduğu, özünə verilən nemətlər üçün hiss etdiyi və sonsuz cənnət həyatını ümid edib yaşadığı coşqunluq hissidir.

Din əxlaqını yaşamayan insanların sıxıntıya düşməsinin əsas səbəblərindən biri təvəkkülsüzlükdür. Təvəkkül Allah`ı özünə vəkil etmək və yalnız Ona güvənməkdir. Cahiliyyə insanları Allah`ın böyüklüyünü qavrayıb təqdir etmədiklərinə görə belə güvən və təslimiyyət yaşamazlar. Allah`ı vəkil etmək əvəzinə özlərinə heç bir fayda verməyən şeylərdən mədət umarlar. Bu səbəblə, qorxularından və cahiliyyə həyəcanlarından həyatı boyunca xilas ola bilməzlər.

Möminlər isə Allah`a təvəkkül etmişlər və beləliklə, cahil cəmiyyətə xas duyğulardan tamamilə uzaqdırlar. Onlar Quranda məqbul göstərilən iman həyəcanını ən dərin şəkildə yaşayırlar. Çünki gördükləri hər görüntünün hikmətlə yaradıldığını bilir və bu hikməti görmək üçün də dərin düşünürlər.

Vicdanlarından ən gözəl şəkildə istifadə edib düşündüklərinə görə, hər şeydəki hikməti çox asan görürlər. Buna görə də eyni hadisəyə qarşı cahil insanlardan daha həssas davranır, gözəlliklərdən

daha çox zövq alır və daha çox həyəcan hiss edirlər. İman edənlər gördükləri qarşısında şövqlü və həyəcanlı olurlar, çünki yoxdan yaradıldığını və belə rəngli yüz minlərlə, milyonlarla yaradılış möcüzəsinin olduğu bir dünyaya gəldiyini bilir, bunun həyəcanını yaşayırlar. Hər baxdığı yerdə Allah`ın bənzərsiz sənətini görürlər: kainat, ulduzlar, səma, günəş, ay, kəpənəklər, quşlar, milyonlarla heyvanlar, bitkilər, meyvələr və s. Möminlər bütün bunların qarşısında həyəcan duyurlar.

Növbəti səhifələrdə möminlərin yaşadığı bu həyəcanın nə qədər böyük nemət olduğuna toxunacaq və möminlərin həyəcan duyduğu mövzulardan bəzilərinə diqqət çəkəcəyik.

# MÖMİNLƏR HANSI ŞEYLƏRƏ GÖRƏ HƏYƏCANLANIRLAR?

**Allah`ın yaratma sənətinə olan həyəcan...**

İnsan gözünü çevirib baxdığı hər yerdə Allah`ın sənətinin bir-birindən heyran edici dəlilləri ilə qarşılaşır. Bir ayədə Allah belə bildirmişdir:

**Onun haqq olduğu onlara bəlli olsun deyə, Biz öz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə, həm də onların öz daxilində mütləq göstərəcəyik. Məgər Rəbbinin hər şeyə şahid olması kifayət deyilmi?! (Fussilət surəsi, 53)**

Möminlər Allah`ın kainatın hər nöqtəsində yaratdığı nizamın mükəmməlliyi qarşısında həyəcanlanırlar. Çünki onlar bu möcüzələrin ardındakı ağılı, qüdrəti və bənzərsiz sənəti görür və Allah`ın böyüklüyünü düşünməyin zövqünü yaşayırlar.

Belə ki, qəflət halındakı insanların bu möcüzələrə necə laqeyd olduqlarını təəccüblə qarşılayırlar. Əgər bir neçə dəqiqə vicdanlarının səsini dinləyib səmimi düşünsələr, onlar da Allah`ın sənəti və ucalığı qarşısında həyəcanlanarlar. Çünki Quranın bir çox ayəsində də diqqət edildiyi kimi, Allah`ın yaratma sənətindəki qüsursuzluq vicdanına tabe olan hər insanın görə biləcəyi qədər təsirlidir. Möminlərin Allah`ın yaratmasındakı fövqəladəlikləri düşünərkən

üzərilərində meydana gələn təsir bir ayədə belə bildirilmişdir:

**O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allah`ı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər: "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından qoru!" (Ali-İmran surəsi, 191)**

Vicdanlarının təşviq etdiyi mövzularda səmimi düşünən möminlər ayədə diqqət edildiyi kimi, göylərin və yerin yaradılışının ardında Allah`ın sonsuz hökmranlığı və sonsuz qüvvəti görürlər. Allah`ın bunların hər birində yüzlərlə və minlərlə hikmət saxladığını bilir və bu mükəmməl nizam qarşısında böyük  həyəcan duyurlar. Ancaq bu, insanı narahat edən və ya təlaşa salan cahiliyyə həyəcanı deyil, əksinə, insana doğrunu göstərən Rəhmani bir həyəcandır. Bu həyəcan onların Allah`dan başqa qulluq ediləcək başqa ilah olmadığını daha yaxşı düşündüklərinin nəticəsidir. Müsəlmanlar dünyadakı sənə və ehtişamı düşündükcə özlərini yaradan, tək dost və vəkilləri olan Allah`ın qüdrətini, gücünü və böyüklüyünü daha yaxşı anlayırlar. Allah`ı təsbih edib hörmətlə şanını ucaldır və ayədə keçən **"Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından qoru!" (Ali-İmran surəsi, 191)** sözləri ilə ifadə edildiyi kimi, əzabından qoruması üçün Allah`a sığınırlar.

## Nemətlərə və gözəlliklərə olan həyəcan...

Nemət və gözəlliklərdən ən çox təsirlənən və ən çox zövq alan möminlərdir. Çünki onlar hər şeyi Allah`ın yaratdığını bilir, hər hadisə və varlığa Allah`dan özlərinə verilən nemət olaraq baxırlar. Bu səbəbdən, eyni gözəllik onlar üçün digər insanlarda olduğundan daha böyük məna ifadə edir.

Gözəlliklərə olan həyəcan hisslərinin bir səbəbi də möminlərin digər insanların görə bilmədiyi incəlikləri görmələridir. Çünki ağıllarından lazımi kimi istifadə etməyən və hadisələr üzərində dərin düşünməyən insanlar, ümumiyyətlə, hadisələrin ancaq xarici, yəni səthi qismini qavrayırlar. Bu səbəblə, bunlardan aldıqları zövq də eyni şəkildə məhdud olur. İman edənlər isə qarşılarına çıxan hər şeyə iman və hikmət gözü ilə baxırlar. Buna görə də zövq alıb həyəcanlanmaq üçün gözəllik görməyi bacarırlar.

Möminlərin gözəlliklərdən daha çox təsirlənmələrinin başqa bir səbəbi də budur: Allah`a qarşı təkəbbürlü olan Onun yaratdığı gözəllik və ya möcüzələri görə bilməz. Çünki Allah`ın gücünü təqdir etdiyində öz acizliyini də qəbul etmək durumunda qalır. Bu vəziyyəti qəbul etmədiyi üçün gözəllikləri görsə də, bundan təsirlənməmək üçün mütləq bir şərh tapır və həyəcanını aparmağa çalışır. Möminlər isə qürur və təkəbbürdən uzaq insanlardır. Ayrıca, Allah`a möhtac olduqlarını düşünür, buna görə, gözəllikləri təqdir edib Allah`ın ehtişamlı yaratmasına şahidlik etməkdən çəkinmirlər. Gözəlliklərə qarşı təbii reaksiya verir və səmimi həyəcanı daha çox yaşayırlar.

Məsələn, göz oxşayan rəng və xoş ətirli gül görəndə bunun Allah`ın "Cəmil" (gözəl olan) isminin, yəni Allah`ın gözəlliyinin təcəllisi olduğunu düşünür və daxilən bunun həyəcanını yaşayırlar. Sonra isə təcəllisini belə təsirli və göz oxşayan şəkildə yaradan Allah`ın zatının bundan nə qədər üstün və sonsuz gözəlliyə sahib olduğunu təfəkkür edir və dolayısilə, həyəcan hissi keçirirlər.

Bütün bu gözəlliklərin onlar üçün yaradıldığını və bunun Rəbbimizdən onlara lütf olduğunu düşünürlər. Beləliklə, Allah`ın onları sevdiyini bilir və bunun həyəcanını yaşayırlar. Bundan başqa, bu gözəlliklərin bir çox insan üçün məna ifadə etmədiyinin fərqindədirlər və bu da Allah dostu kimi onlara xüsusi bir zövq verir. Allah`ın onlara bu gözəllikləri görmək imkanı yaratdığına, bunları

qarşılarına çıxarmasına şükür edərlər.

Yenə Allah`ın onlara bu nemətləri görən sağlam gözlər, şüur açıqlığı və səmimi iman verdiyinə görə həyəcan duyarlar.

Bir çox insan mənəvi yöndən zəif olduğuna görə, gözəlliklərdən həzz ala bilmir. Lakin Allah möminləri seçmiş, onlara imanı sevdirmişdir və bu imanın sayəsində də gözəlliklərdən zövq almaq möminlərə xüsusi sevinc bəxş edir.

Bundan başqa, nemətlərdəki müxtəliflik, mükəmməl yaradılış və onlardakı sonsuz ağıl da yenə Allah`a olan heyranlıqlarını və Onun sənəti qarşısında duyduqları həyəcanı artırır.

Allah`ın "Sizə istədiyiniz şeylərin hamısından vermişdir. Əgər Allah`ın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalım, həm də çox nankordur" (İbrahim surəsi, 34) ayəsi ilə də xatırlatdığı kimi, möminlər dünya nemətlərinin bitib tükənməyən müxtəlifliyi qarşısında həyəcanlı olurlar.

Allah`ın onlara lütf etdiyini və diləsəydi, bundan çox azını vermiş olacağını düşünür, nemətlərə şükür etməyin həyəcanını yaşayırlar.

"Yadınızı salın ki, o zaman Rəbbiniz bunu bildirmişdi: **"Əgər şükür etsəniz, sizə artıracağam. Yox, əgər nankorluq etsəniz, Mənim əzabım, həqiqətən, şiddətlidir!"" (İbrahim surəsi, 7)** ayəsi ilə bildirildiyi kimi, Allah`ın şükür edənlərə nemətlərini daha da artıracağını düşünmək da onlara həyəcan verir.

Allah`ın qədərdə onlara dünya həyatında nemət və gözəllik yaratdığına şükür edir, buna görə həyəcanlanırlar. İman edənlər Allah`ın onları qoruduğunu və onlara rəhm etdiyini hər an görür bunun Allah`ın  lütfü olduğunu bilirlər. Necə ki, Allah rəhmətini dilədiyinə verir. Əgər insan gözəl və xoşbəxt həyat yaşayırsa, bu, yalnız Allah`dandır. Bu həqiqət bir çox ayədə vurğulanır: "Allah dilədiyini yaradar və seçər", "Qaranlıqlardan nura çıxarar", "Dilədiyini hidayətə çatdırar" və sairə. Nemət içində yaşayan mömin bunu

Allah`a borclu olduğunu bilir və Allah`ın onu seçməsi, pisliklərdən onu uzaq etməsi, nemət və gözəllik içində yaşatması onu daha da həvəsləndirir. Şövq və həyəcanla Allah`a yönəlir, bütün hərəkətləri ilə Onu razı etməyə çalışır.

Dünyadakı gözəllikləri gördükcə cənnəti və oradakı gözəlliklərin nə qədər qüsursuz və mükəmməl olduğunu düşünür və bu gözəlliklərə qovuşmaq ümidi həyəcanını artırır.

Bunlar möminlərin gözəlliklər qarşısında həyəcanlandığı mövzulardan yalnız müəyyən olanlarıdır. Onların gözəlliklərdə gördükləri incəliklər isə burada sayılanlarla məhdudlaşmayacaq qədər çoxdur. Möminlər uzaqgörəndirlər və təfəkkür gücləri də son dərəcə yüksəkdir. Bu həzz imanın müsəlmanlara qazandırdığı böyük nemətdir və inkarçılar bundan tamamilə uzaqdır.

## Sevgi və dostluq həyəcanı...

İnsanların böyük əksəriyyəti həyatı boyunca həqiqi sevgi və həqiqi dostluğu tapmadıqlarından şikayətlənir və bu duyğunu yaşamağın qeyri-mümkün olduğunu düşünürlər. Bu düşüncə cahiliyyə insanları üçün bir mənada doğrudur. Cahiliyyə sisteminin hakim olduğu insanlar arasında həqiqi sevgi və dostluğun yaşanması mümkün deyil. Çünki onlar bir-birlərini gəlir və mənfəətlərə görə sevərlər. Bu mənfəətlər sona çatdığında isə sevgi və dostluq zənn etdikləri yaxınlıq da sona çatır.

Sevgi və dostluğu ən yaxşı bilən və ən gözəl şəkli ilə yaşayanlar isə möminlərdir. Bunun ən əhəmiyyətli səbəbi  kitabın əvvəlində də xatırlatdığımız kimi, onların bir-birlərini hər hansı bir mənfəət üçün deyil, yalnız vicdanlı və saleh qullar olduqları üçün sevmələridir. Onlar təqvalı olduqlarına və Allah`dan görə bir insanı sevər və onunla dostluq edərlər. Çünki təqvalı insan Allah qorxusundan do-

layı, eyni zamanda, Quran əxlaqını da ən gözəl şəkildə yaşayan insan deməkdir. Quran əxlaqını yaşayan insan hansı xüsusiyyətlərin sevgi və dostluğa səbəb olduğunu bilir və bunları ən mükəmməl şəkildə həyata keçirər. Eyni şəkildə, qarşı tərəfin yaxşı xüsusiyyətlərini təqdir edə bildiyi üçün həqiqi mənada sevməyi də bilər.

Bu anlayış davam etdiyi və insanlar arasında Quran əxlaqı ən gözəl şəkildə yaşandığı müddətdə  sevgi və dostluqdan duyulan həyəcan heç vaxt sona çatmaz. Bundan başqa, insanların əxlaqı gözəlləşdikcə sevgi və dostluqdan aldıqları həzz və həyəcan da davamlı şəkildə artar.

Onlar bir-birlərindəki mömin xüsusiyyətlərini, ixlas və səmimiyyəti, Allah qorxusunu, iman və vicdanı gördükcə daha da şövqlənərlər. Eyni şəkildə, möminlərin Allah`ın rizasını və sevgisini qazanıb axirətdə üstün mövqe sahibi olacağını ummağın həyəcanını da yaşayarlar. Çünki belə bir vəziyyətdə Allah`a çox yaxın, Ona dost olmuş və bəlkə də Allah`ın dost etdiyi biri ilə dost olmuş olacaqlar.

Ayrıca, onların sevgisi sonsuz birlik anlayışına dayandığı üçün heç vaxt sona çatmaz. Bu dünyada başlayan birlikləri ölümlə sona çatmaz, əksinə, daha da mükəmməlləşib  axirətdə də sonsuzadək davam edəcək. Möminlərin sevgi anlayışı bu nöqtədə yenə cahiliyyə cəmiyyətinin sevgisindən fərqlənir. Onlar sevgi və dostluqlarında sonsuz birliyə niyyət etmədikləri üçün sədaqət, vəfa və güvənlik anlayışları da onlara görə mənasını itirir. Dost olduqlarını iddia edən iki insan bu dostluğun müddətinə sərhəd qoymuşlarsa, bu, onların hər an dostluqlarına son verən qapını açıq qoyduqları mənasını verir. Hər iki tərəfin qarşılıqlı olaraq bu ehtimalı düşünməsi onları bir-birlərinə qarşı son dərəcə təmkinli və təlaşlı hala gətirir. Bu təmkin isə sevgi və dostluğun gərəyi olan səmimiyyəti ortadan qaldırır. Həmin insanların öz aralarındakı səmimiyyət məhduddur. Çünki dostluqlarının bitməsi durumunda göstərdikləri səmimiyyətin

özlərinə zərər verəcəyini düşünürlər.

Saleh müsəlmanlarda belə hesab söz mövzusu olmaz. Sonsuzluğa niyyət etmək sonsuzadək sədaqət, sevgi və yoldaşlıqda qərarlılıq göstərmək deməkdir. Odur ki, möminlər sevgi və dostluqlarına üstünlük gətirən sonsuzluğa niyyət etməklə sevgidən böyük həzz duyarlar. Bu, sevdikləri insanlarla cənnətdə də birlikdə olmağı ümid etməyin və sonsuza qədər sevgilərində sadiq qalacaqlarını bilməyin həyəcanıdır.

## Yaxşıları qoruma şövqü

Allah **"Sizə nə olub ki, Allah yolunda: "Ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən kənara çıxart, bizə öz tərəfindən mühafizəçi göndər, yardımçı yolla!" – deyə dua edən aciz kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?" (Nisa surəsi, 75)** ayəsi ilə zülm altında olub xilaskar gözləyən insanların durumuna diqqət çəkmişdir. Bu ayənin gərəyi kimi öz haqlarını qoruya bilməyən günahsız insanları qorumaq, onlara kömək etmək, onları təhlükəsizliyə qovuşdurmaq möminlərin vicdani bir məsuliyyətidir.

Bu məsuliyyətlərinin şüurunda olan müsəlmanlar yalnız iman etdikləri üçün əziyyət görən insanları zülmdən qurtarmaq mövzusunda istək və şövq duyarlar. Güclü vicdana və yenə həssas ədalət anlayışına sahib olmaları səbəbi ilə günahsız insanların əziyyət çəkməsinə əsla göz yummazlar. Maddi-mənəvi bütün imkanlarını ortaya qoyaraq onlara kömək edərlər. Şövq və həyəcanları onlara bu yöndə cəsarət və güc qazandırar.

Allah`ın möminlərə yüklədiyi bir başqa məsuliyyət də pisliklərə qarşı mübarizə aparmaq, insanları pis işlərdən çəkindirməkdir. Möminlər bu mövzuda da şövq içindədirlər; çünki pislərə qarşı mübarizə aparmaq, yer üzündə zülmü ortadan qaldırmaq, sülh və güvənlik mü-

hitini meydana gətirmək insanlıq adına edilən ən böyük və ən şərəfli xidmətlərdən biridir. Pislikdən çəkindirməyin əhəmiyyətinə Quranda belə diqqət çəkilmişdir:

**Onlar özlərinə verilən öyüdü unutduqları zaman Biz də (onları) pislikdən çəkindirənlərə nicat verdik, zülm edənləri isə itaətdən çıxdıqları, günah işlədikləri üçün şiddətli bir əzabla məhv etdik. (Əraf surəsi, 165)**

Quranda bir çox peyğəmbərin şövq və həyəcanla möminləri qorumasına və inkarçılara qarşı mübarizəsinə nümunələr verilmişdir.

Məsələn, hz. Musa yaşadığı dövrdə İsrail oğullarını Misir fironunun zülmündən qurtarmaq üçün çox mübarizə aparmışdır. Quranda **"...Həqiqətən də, firon yer üzündə qəddar hakim və həddi aşanlardan idi" (Yunus surəsi, 83)** sözləri ilə tanıdılan firon Misir xalqını qul kimi işlədir, qadınları sağ buraxıb oğlan uşaqlarını öldürərək xalqına işgəncə edirdi. Hz. Musa Allah'dan gələn **"Onun yanına gedib deyin: "Biz sənin Rəbbinin elçiləriyik. İsrail oğullarını bizimlə göndər və onlara əziyyət vermə. Biz sənin yanına Rəbbindən dəlillə gəlmişik. Doğru yolla gedənlərə salam olsun" (Taha surəsi, 47)** vəhyi ilə fironun yanına getmiş və ondan xalqına etdiyi zülmü dayandırmağını istəmişdi. Həmçinin onların özü ilə birlikdə Misirdən çıxmalarına da icazə verməsini tələb etmişdi.

Bu nümunədə göründüyü kimi, hz. Musa zülmə məruz qalan insanları rahatlığa və təhlükəsizliyə qovuşdurmaq məsuliyyətini öz üzərinə götürmüş, hətta başqa ayələrdə bildirildiyi kimi, illərlə bunun üçün mübarizə aparmışdır. Məsum insanlara edilən əziyyət sona çatana qədər zalımlardan əl çəkməmişdir.

Etdiyi cəhdlərdən başqa, zülmə məruz qalan bu insanları mənəvi baxımdan gücləndirib cəsarətləndirməyə çalışmış və onları səbirlə Allah'dan kömək istəməyə dəvət etmişdir. Belə ki, göstərdiyi şövq

və əzmkarlıq nəticəsində Allah Musanı və ona dəstək olan möminləri firondan üstün etmişdir.

Qurandakı bu nümunələrdən başa düşüldüyü kimi, möminlər hər zaman yaxşıların, yəni şəfqətli, mərhəmətli, ədalətli, yardımsevər və fədakar insanların yanında; pislərin, yəni kinli, zalım, xudbin insanların isə qarşısında olurlar. Hər zaman zülmkarlara mane olmaq və məzlumları xilas etməyə çalışırlar. Bütün bunları edərkən Allah'ın əmrini yerinə yetirmənin şövq və həyəcanını yaşayırlar. Göstərdikləri bu gözəl əxlaq ilə Allah'ın ədalətini dəstəkləyir, vicdanlarının səsini dinləyir, Quran əxlaqını həyatlarında tətbiq edir və məsum insanları rahatlığa qovuşdururlar. Elə bütün bunların həyəcanı da onlara böyük həzz verir.

İman gətirənlərin göstərdikləri sarsılmaz qətiyyət onların əxlaqına da müsbət təsir edir. Allah'ı razı salmaq cəhdi ilə böyük məsuliyyəti üzərinə götürən insanların əxlaqlarının gözəlləşdiyinə Bədiüzzaman Səid Nursi bir sözündə diqqət çəkmişdir:

> **"Məqsədin böyüməsi ilə himmət (səmimi cəhd) də böyüyür və hamiyəti-İslamiyyənin (müsəlmanlara sahib çıxma cəhdinin) coşqusu ilə əxlaq da təkəmmül edir (kamilləşir). (Divani-Hərbi Örfi, səh. 45)**

## İbadətləri yerinə yetirməyin verdiyi həyəcan...

Allah'ı razı salmaq və Onun sevgisini qazana bilmək möminlər üçün hər şeydən vacibdir. Buna görə də bütün həyatı boyu Allah'a daha da yaxınlaşa bilməyin yollarını axtarırlar. Allah **"Ey iman gətirənlər! Allah'dan qorxun, Ona vəsilə axtarın. (Allah) yolunda cihad edin ki, nicat tapasınız!" (Maidə surəsi, 35)** ayəsi ilə möminlərə bunu əmr etmişdir.

Müsəlmanlar Quranda bildirilən ibadətləri yerinə yetirməyi Allah'a yaxınlaşmaq üçün ən vacib vasitə hesab edirlər. Lakin bunun üçün ibadətlərin sadəcə feili olaraq yerinə yetirilməsinin kifayət etmədiyini, səmimiyyət və iman şövqü ilə ibadət etməyin Allah qatında qəbul edildiyini də bilirlər. Belə ki, Allah bir ayəsində möminlərin Allah üçün kəsdikləri qurbanların nə ətlərinin, nə də qanlarının Allah'a çatacağını, əslində, onları Allah'a yaxınlaşdıracaq şeyin qəlblərindəki təqva olduğunu bildirmişdir:

**Onların nə əti, nə də qanı Allah'a çatar. Ona yalnız sizin təqvanız çatar. Sizi doğru yola yönəltdiyinə görə, Onu uca tutasınız deyə, bu heyvanları sizə beləcə ram etdi. Sən isə yaxşılıq edənləri müjdələ! (Həcc surəsi, 37)**

Bu həqiqəti dərk edən möminlər də Allah qatında dəyərli olan şeylərin səmimiyyət və ixlas olduğunu bilərək hər etdiklərini ibadət zövqü ilə yerinə yetirirlər. Quranda möminlərin ibadətləri tətbiq edərkən hiss etdikləri şövq və həyəcana dair bir çox nümunə verilmişdir. Bunlardan bəziləri növbəti səhifələrdə izah olunacaq.

## Quran ayələrini oxuyarkən hiss edilən həyəcan…

Allah Quranda möminlərdən: **"Ayələrimizə ancaq o kəslər iman gətirirlər ki, ayələrimiz onlara xatırlanarkən təkəbbür göstərmədən səcdəyə qapanır, Rəbbinə həmd səna ilə təriflər deyirlər" (Səcdə surəsi, 15)** - deyə bəhs etmişdir. Möminlərin ayələri eşidən kimi səcdəyə qapanmaları, heç şübhəsiz ki, onların imanlarının gücündən və Allah'a qulluq etməkdən aldıqları böyük həzdən qaynaqlanır.

Allah'ın onlara içində heç bir şeyin əskik buraxılmadığı və Allah'ın sözlərindən ibarət bir kitab göndərməsindən böyük həyəcan duyurlar. Həmçinin Quranın hər ayəsinin Allah'ın onlara olan sev-

gisinin, mərhəmətinin və ədalətinin bir təcəllisi olduğunu bilməyin şövqünü də yaşayırlar. Bundan əlavə, hər şeyi qavraya biləcək şüur açıqlığına sahib olduqlarına görə də ruhən böyük sevinc duyur və Allah'a çox güclü sevgi ilə bağlanırlar. Bu da onların qəlblərinə hüzur gətirir. Quranda iman gətirənlərin Allah'ın ayələri qarşısında duyduqları bu böyük həzz ilə ağlayaraq səcdəyə qapandıqları bildirilmişdir:

**De: İstər ona inanın, istərsə də inanmayın. Doğrudan da ondan əvvəl elm verilmiş kimsələrə (ayələr) oxunduğu zaman üzü üstə səcdəyə qapanırlar. (İsra surəsi, 107)**

**Və: "Rəbbimiz pak və müqəddəsdir! Rəbbimizin vədi mütləq yerinə yetəcəkdir" –deyirlər. Onlar üzüqoylu düşüb ağlayır və bu ayələr onların itaətini artırır. (İsra surəsi, 108-109)**

Allah ayələrin davamında da oxuduqları ayələrin onların Allah'a olan hörmət dolu qorxularının artdığına diqqət çəkmişdir. Yenə başqa ayədə də Allah peyğəmbərlərin Allah'ın ayələri qarşısında duyduqları həyəcanın şiddətindən ağlayaraq səcdəyə qapandıqlarını bildirmişdir:

**Onlar Allah'ın nemət bəxş etdiyi peyğəmbərlərdən, Adəmin və Nuhla birlikdə gəmidə daşıdığımız kimsələrin nəslindən, İbrahimin və İsrailin nəslindən seçib haqq yola yönəltdiyimiz kimsələrdəndir. Onlar özlərinə ər-Rəhmanın ayələri oxunduğu zaman səcdəyə qapanıb ağlayanlardır. (Məryəm surəsi, 58)**

Başqa bir ayədə isə möminlərin Quran ayələri qarşısında duyduqları Allah qorxusundan dərilərinin ürpərdiyi belə təsvir olunur:

**Allah sözün ən gözəlini – ayələri bir-birinə bənzəyən və təkrarlanan kitab kimi nazil etdi. Rəbbindən qorxanların**

**ondan dəriləri ürpəşər. Sonra isə Allah'ı yad etməklə dəriləri və qəlbləri yumşalar. Bu, Allah'ın hidayətidir. Onunla istədiyini doğru yola yönəldir. Allah'ın zəlalətə saldığı şəxsə isə yol göstərən olmaz. (Zumər surəsi, 23)**

## Dua edilərkən duyulan həyəcan...

Allah **"Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən onlara yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy, onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər" (Bəqərə surəsi, 186)** ayəsi ilə bütün insanları dua etməyə çağırmışdır. Onlara şah damarından daha yaxın olduğunu, dua etdikləri vaxt onları eşitdiyini və dualarına qarşılıq verəcəyini müjdələmişdir. Allah'ın insanlara belə gözəl nemət verməsi qullarının hər söylədiyinə, hər düşündüyünə şahid olması möminlər üçün böyük həyəcan vəsiləsidir. Bu, Allah'ın möminlərə dost olduğunu, nəzarətinin hər an onların üzərində olduğunu və onlara hər an mərhəmət göstərdiyini bilməyin həyəcanıdır. Buna görə də iman gətirənlər də böyük şövq və ehtiyac içərisində Rəbbimizə sığınır və hər an hər mövzuda Ondan kömək diləyirlər.

Onlara həyəcan verən şeylərdən biri də Allah'dan istəyə biləcəkləri nemətlərin heç bir sərhədinin olmamasıdır. Hər insan Allah'dan ehtiyac duyduğu kiçik-böyük, maddi-mənəvi hər şeyi istəyə bilər. Allah qullarının dualarına onlar üçün ən xeyirli olacaq şəkildə cavab verir.

## Allah'a yaxınlaşmaq üçün bir vasitə olan tövbə etməyin gətirdiyi şövq və həyəcan...

İnsan səhv edə bilən bir varlıqdır. Hər şeyi bilməsi və qüsursuz olması, əlbəttə ki, mümkün deyil. Belə ki, dünya imtahan yeridir və insan buraya imtahan olunmaq üçün gəlmişdir. Əsl yurdu isə axirət

olacaq. Buna görə də imtahan meydanı olan bu dünyada bir çox qüsuru olacaq. Əsas olan günah etməkdə israr etməmək, doğrunu görən kimi onun ardınca getmək və əvvəlki pis vərdişlərini tərk etməkdir. İnsan mükəmməli əldə edənə qədər bu müddət davam edir. Möminlər qüsurlu və aciz qul olduqlarını dərk edirlər. Etdikləri günahların ardınca bağışlanma diləyir, tövbə edirlər. Quranda vacib ibadət olaraq diqqət çəkilən tövbənin onlara qazandırdığı bir çox mənəvi gözəllik vardır.

Elə buna görə də möminlər səhv etdikdə əsla ümidsizliyə qapılmır, əksinə, Allah'ın bağışlayacağını bilərək rahat və şövqlü olurlar. Səhv etdiklərini başa düşdükləri anda vaxt itirmədən Allah'a sığınır və bağışlanma diləyirlər. Allah səmimi qullarının bu xüsusiyyətlərini Quranda belə bildirmişdir:

**O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allah'ı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər, - günahları Allah'dan başqa kim bağışlaya bilər? – onlar bilə-bilə etdiklərində israr etməzlər. (Ali – İmran surəsi, 135)**

Allah'ın səmimi edilən tövbələri bağışlayacağını müjdələməsi iman gətirənlərə böyük ümid verir. Çünki nə qədər çox günahları olsa da, ölüm vaxtına qədər hər zaman təmizlənmək və cənnətə layiq olan əxlaqa qovuşa bilmək fürsətləri vardır. Allah Quranda insanlara olan rəhmətini və sevgisini belə açıqlamışdır:

**Qullarıma mənim bu sözümü de: "Ey mənim özlərinə qarşı həddi aşmış qullarım! Allah'ın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən də, bağışlayandır, rəhimlidir!"**

Allah'ın onlara qarşı şəfqətli və bağışlayıcı olduğunu görmək, Ona hər sığındıqda Rəbbimizin mərhəməti ilə qarşılıq görəcəklərini ummaq möminlərin qəlblərində dərin coşqu və həyəcan yaradır.

## Quran əxlaqını təbliğ etməyin verdiyi həyəcan...

Allah möminlər arasında yaxşılığa, xeyirə və gözəl olana çağıran bir camaat olmasını əmr etmişdir:

**"Qoy, sizin içərinizdən xeyirə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır". (Ali - İmran surəsi, 104)**

Saleh müsəlmanlar Allah'ın bu ayəsi gərəyi insanlara Quran əxlaqının gözəlliyini və cahiliyyə həyat tərzinin yanlışlığını izah etməyə və onları Allah'ın dininə yönəltməyə çalışırlar. Özləri dinin gətirdiyi gözəl əxlaqı yaşadıqları və bunun insanlara necə rahat həyat təqdim etdiyini görə bildikləri üçün həmin hüzur və gözəlliyi digər insanların da yaşamasını istəyirlər. Cəhənnəmin nə qədər qəti həqiqət olduğunu bildikləri üçün bütün insanların Allah'ın razı olacağı bir həyat yaşayaraq cəhənnəmdəki sonsuz əzabdan qorunmalarını istəyirlər.

Onlar üçün yalnız bir insanın belə doğrunu görə bilməsi son dərəcə önəmlidir. Çünki bu insan üçün dünyada etdiklərinə qarşılıq olaraq sonsuz cənnət və ya cəhənnəm həyatı vardır. Buna görə də tək bir insanın belə cəhənnəmdən qurtulub Allah'ın rəhmətinə qovuşa bilməsi üçün sevə-sevə hər cür fədakarlığı edirlər. Lazım olsa, aylarını, illərini gecə-gündüz bu insanın dinə yaxınlaşması və mömin əxlaqını mənimsəməsi üçün sərf edirlər. Eyni şəkildə, yenə sadəcə bir insanın axirəti üçün bütün maddi imkanlarını da böyük şövq və istəklə ortaya qoya bilirlər. Bu isə onlara həm fiziki, həm də mənəvi baxımdan böyük güc qazandırır. Həyatlarının sonuna qədər Allah'ın dinini ən gözəl və hikmətli şəkildə izah etməyə davam edirlər.

Ancaq bunu da ifadə etmək lazımdır ki, bütün cəhdlərinin qarşılığında tək bir insan belə hidayətə qovuşmasa, möminlər yenə də eyni şövqlə təbliğlərinə davam edirlər. Çünki onların məsuliyyəti

sadəcə dini izah etməkdir. İnsanlara hidayət verən Allah’dır. Belə ki, Quranda Peyğəmbərimizin (s.ə.v) göstərdiyi ciddi səylərə baxmayaraq, Məkkə müşriklərindən bir çox insanın iman gətirmədiyi və buna qarşılıq Allah’ın **“ Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah istədiyini doğru yola yönəldir. O, doğru yolda olanları da daha yaxşı tanıyır” (Qəsəs surəsi, 56)** ayəsi ilə Peyğəmbərimizə bu vəziyyəti xatırlatdığı bildirilir.

Quranda Peyğəmbərimiz (s.ə.v) kimi digər bütün peyğəmbərlərin də təbliğ mövzusunda böyük şövq və həyəcan ilə hərəkət etdiklərinə diqqət çəkilmişdir. Hər biri bunun üçün müxtəlif çətinliklərlə qarşılaşdıqları halda, əsla yollarından dönməmiş, təbliğlərinə davam etmişlər. Əksinə, qövmlərinə doğrunu göstərə bilmək üçün hər yola, hər üsula əl atmışlar. Quranda hz. Nuhun bu mövzudakı ixlaslı cəhdlərinə belə diqqət çəkilmişdir:

> **O dedi: “Ey Rəbbim, mən xalqımı gecə də, gündüzdə dəvət etdim. Amma dəvətim onların haqdan qaçmalarını daha da artırdı. Sən onları bağışlayasan deyə, mən hər dəfə onları imana dəvət etdikdə, onlar barmaqlarını qulaqlarına tıxayır, paltarlarına bürünür, küfrlərində israr edir və ötkəm-ötkəm təkəbbürlənirdilər. Sonra mən onları aşkarcasına dəvət etdim. Sonra mən onlara həm uca səslə, həm də gizlicə bildirib dedim: “Rəbbinizdən bağışlanmağınızı diləyin! Həqiqətən də, O, çox bağışlayandır. (Nuh surəsi, 5-10)**

Ayələrdə göründüyü kimi, hz. Nuh yaşadığı cəmiyyətdəki insanların qəlblərini imana isindirmək üçün şövqlə Allah’ın dinini təbliğ etmişdir. Onların hər dəfə uzaqlaşmalarına baxmayaraq, gecə-gündüz bilmədən Allah’ın böyüklüyünü izah etmişdir. Onlar isə haqqı hər dəfə eşitdikdə inadla bu təbliğlərdən üz çeviriblər. Hz. Nuh Allah’ın əmrini yerinə yetirməkdən, dini təbliğ etməkdən duyduğu

şövq və həyəcan sayəsində onların bu hərəkətlərinə fikir verməmiş, sarsılmaz bir qərarlılıq və qətiyyətlə vəzifəsinə davam etmişdir. Təkəbbür göstərmələrinə qarşı, onlara imanı sevdirmənin fərqli yollarını axtarmışdır. Bəzən açıq-aşkar, bəzən də gizli yollarla Allah'ın varlığını izah edərək onları yaşadıqları cahiliyyə sisteminin çətinliklərindən qurtarmaq istəmişdir.

Lakin unutmamaq lazımdır ki, hz. Nuh və onun kimi böyük şövq və ixlasla Allah'ın dinini təbliğ edənlər bunun üçün sərf etdikləri hər kəlmənin, etdikləri hər cəhdin qarşılığını – Allah'ın izni ilə ən gözəl şəkildə alacaqlar. Çünki Allah **"Tövbə edən, ibadət edən, həmd edən, oruc tutan, ruku və səcdə edən, yaxşı işlər görməyi buyurub pis əməlləri qadağan edən və Allah'ın qoyduğu hüdudları qoruyan o möminləri müjdələ" (Tövbə surəsi, 112)** ayəsində də bildirdiyi kimi, insanlara yaxşılığı əmr edib pis əməllərdən çəkindirənləri rəhməti ilə müjdələmişdir.

## Cənnəti düşünməyin verdiyi həyəcan...

Möminlərin ən çox həyəcan duyduqları mövzulardan biri də cənnəti və cənnət nemətlərini düşünməkdir. Çünki cənnət insanlara daha əvvəl dünya həyatında heç rast gəlmədikləri fərqli bir həyat təqdim edir. Orada dünya həyatındakı əskiklik və qüsurların heç biri yoxdur. Çünki cənnət dünya həyatı kimi bir imtahan məkanı olaraq deyil, mükafat yurdu olaraq yaradılmışdır. Bundan əlavə, Allah insanların cənnət üçün darıxmaları və ona qovuşmaq üçün cəhd etmələri üçün dünya həyatını xüsusi olaraq qüsurlu yaratmışdır. Bütün həyatı boyu mükəmməlliyə qovuşmaq arzusu ilə yaşayan insan dünyadakı həyatın bu əskikliklərini gördükcə cənnəti daha da böyük həyəcanla arzulayır.

Möminlər axirətdə cənnətlə birlikdə həyatları boyu böyük cəhd edərək çəkinməyə çalışdıqları cəhənnəm əzabından qurtulmağın se-

vincini də yaşayacaqlar. Dünya həyatında Allah'ın dininə, Quran əxlaqının yaşanmasına və iman gətirənlərə qarşı mübarizə aparanlar, onlara əzab-əziyyət verməyə cəhd edənlər Allah'ın sonsuz ədalətinin bir təcəllisi olaraq etdiklərinin cəzasını cəhənnəmdə alacaqlar. Quranda bu şəxslərin alacaqları cəza və möminlərin bundan duyacaqları sevinc belə ifadə olunmuşdur:

**Doğrudan da, günah edənlər iman gətirənlərə gülürdülər, onların yanından keçdikdə bir-birinə göz-qaş edirdilər, öz ailələrinin yanına fərəhlə qayıdırdılar. Möminləri gördükdə isə deyirdilər: "Həqiqətən, bunlar azmışlardır!" Halbuki, bu günahkarlar onlara gözətçi qoyulmamışdırlar. Bu gün məhz iman gətirənlər kafirlərə güləcəklər. Onlar taxtlar üstündə ətrafa baxacaqlar. Kafirlər törətdiklərinin cəzasını aldılarmı?! (Mutəffifun surəsi, 29-36)**

Başqa bir ayədə isə inkarçıların Allah'ın ədaləti ilə cəza almaları və möminlərin qəlblərini şəfaya qovuşduğu bildirilir. Belə ki, Allah'ın bu vədini sadəcə düşünmək belə iman gətirənlərin qəlbində həyəcan yaradır.

Bununla yanaşı, cənnətdə mələklər tərəfindən salam sözləri ilə orada ən gözəl şəkildə qarşılanacaqlarını düşünmək də iman gətirənlərə dərin həzz verir. Həm Allah'ın mələklərini görəcəklər, həm də onlar tərəfindən əbədi yurdları olan cənnətlərə aparılacaqlar. Dünya həyatında Allah'a qulluq etməkdən uzaqlaşanlar əzab və qorxu içində cəhənnəm zəbaniləri tərəfindən qarşılanarkən, möminlər hüzur və rahatlıq içərisində mələklərə tabe olacaqlar. Bunu ümid etmək də onların böyük sevinc duymalarına vəsilə olur. Quranda möminlərin cənnətdə necə qarşılanacaqları belə izah olunur:

**Əməlisaleh ataları, zövcələri və övladları ilə birlikdə daxil olacaqları Ədn bağları hazırlanmışdır. Mələklər bütün qapı-**

**lardan onların yanına daxil olub deyəcəklər: "Səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdunuz necə də gözəldir!" (Rad surəsi, 23-24)**

**O kəslər ki, tər-təmiz olduqları halda, mələklər onların canını alıb deyirlər: "Sizə salam olsun! Əməllərinizə görə cənnətə girin!" (Nəhl surəsi, 32)**

Möminlərin cənnəti düşünərək həyəcanlanmalarının bir səbəbi də, heç şübhəsiz ki, orada onlara vəd edilən nemətlərin bənzərsizliyidir. Lakin bunlardan daha da gözəl olan şey odur ki, onlar həyatı boyu böyük şövqlə arzuladıqları aqibətə qovuşacaq, Rəbbimizin rizasını qazanacaqlar. Allah **"Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Allah onlar üçün ağacları altından çaylar axan, içində əbədi qalacaqları cənnət bağları hazırlamışdır. Bu, böyük uğurdur" (Tövbə surəsi, 100)** ayəsi ilə cənnətinə qəbul etdiyi qullarından razı olduğunu müjdələmişdir. Belə ki, Quranda cənnət nemətləri arasında ən böyük nemətin Allah'ın razılığı olduğu bildirilmişdir:

**Allah mömin kişilərə və mömin qadınlara ağacları altından çaylar axan, içində əbədi qalacaqları cənnət bağları və Ədn bağlarında gözəl məskənlər və etmişdir. Allah'ın razılığı isə daha böyükdür. Bu, böyük uğurdur. (Tövbə surəsi, 72)**

Həmçinin Allah **"Üstəlik, rəhmli Rəbb onlara salam deyəcək" (Yasin surəsi, 58)** ayəsi ilə iman gətirənlər üçün bir müjdə də vermişdir. Bu, möminlərin həyatı boyu göstərdikləri səmimi cəhdlərinə qarşılıq ala biləcəkləri ən gözəl mükafatdır.

İman gətirənlər Quran ayələri ilə izah olunan, lakin insanın qavrayış sərhədlərinə sığmayan mükəmməlliyə sahib olan cənnətin

gözəlliyini düşünməyin həyəcanını da yaşayırlar. Allah orada insan nəfsinin istəyə biləcəyi, ağılın təsəvvür edə biləcəyi hər cür gözəlliyin və nemətin olacağını bildirmişdir. İnsanın dünya həyatındakı məhdud təsəvvürü ilə bu gözəlliklərin növlərini xəyalına gətirməsi isə ancaq müəyyən dərəcəyə qədər mümkündür. Belə ki, cənnət iman gətirən insanlar üçün sonsuz sayda sürprizlərlə doludur. Elə bu sürprizləri düşünmək və bunların – Allah'ın istəməyindən başqa – sonsuza qədər davam edəcəyini bilmək insana böyük həyəcan verir.

Quranda cənnət nemətlərinin bəziləri haqqında möminlərə bildirilmişdir. Məsələn, möminlər cənnətlərdə bütün sevdikləri ilə, dostları ilə birlikdə olacaqlar. Orada bütün peyğəmbərlərlə, şəhidlərlə, əməlisaleh möminlərlə dostluq edəcək və sonsuza qədər də sadəcə Allah'ın razı olduğu bu insanlarla birlikdə yaşayacaqlar. Orada sevgi və dostluğu ən gözəl şəkildə yaşayacaq və əsla bu nemətlərdən bezməyəcəklər.

Şeytanın cənnət xalqı ilə heç bir əlaqəsi olmayacaq və o da sonsuza qədər cəhənnəm atəşində layiq olduğu əzabı yaşayacaq. Oradakı hər kəs etibarlı, Allah'a sadiq və gözəl əxlaqlı olacaq. Pis əxlaq xüsusiyyətlərinin heç birini görmək mümkün olmayacaq, kin, qəzəb, həsəd kimi cahiliyyə xüsusiyyətləri sonsuza qədər yox olacaq. Cənnətdə dünya həyatındakı mübarizə mühitinin bütün çətinlikləri aradan qalxacaq. Hiylə quranların hiyləsini yox etmək üçün mübarizə aparmaq və ya münafiqlərin oyunlarına qarşı diqqətli olmaq kimi cəhdlər göstərmələri lazım olmayacaq. Orada iman gətirənlər sonsuza qədər sadəcə nəfslərinin xoşuna gələn nemətlər içərisində hüzur və ləzzətlə yaşayacaqlar. Bütün insanlar ən gözəl surətlərdə yaradılacaq və dünyadakı bütün insani qüsurlardan təmizlənmiş olacaqlar. Gözəl xasiyyətli, gözəl üzlü, bir-birlərinə çox sevən insanlarla birlikdə olacaqlar. Oradakı heç bir şey dünya həyatının qanunlarına bağlı olmayacaq, bütün səbəblər aradan qalxacaq və yeni həyat, yeni

nemətlər yaradılacaq. Oradakı saraylar, taxtlar, döşəklər möhtəşəm gözəllikdə olacaq; baldan çaylar, çox rahat yeyilən və budağından heç vaxt əskilməyən meyvə ağacları və insanın istəyə biləcəyi bir çox nemət olacaq. Bundan başqa, cənnətdə insan ağlının dünyada ikən qavramaqda çətinlik çəkdiyi sonsuzluq yaşanacaq. Yüzlərlə, minlərlə, milyardlarla, trilyonlarla, katrilyonlarla  il deyil, trilyon dəfə trilyon il də deyil, heç bitməyən, sonu olmayan sonsuz həyat olacaq. İnsanın dünyada ikən yaşadığı bezginlik, sıxılma kimi hissləri də alınacaq və sonsuza qədər yaşadığı hər andan böyük ləzzət alacaq.

Dünya həyatında cənnətdə sahib olmağı ümid etdikləri bu nemətləri düşünmək möminlərə böyük zövq və həyəcan verir. Bu nemətlərə qovuşmaq həyəcanı ilə daha da şövqlənir və Allah'ın cənnətə layiq qullarından ola bilmək üçün daha çox cəhd edirlər. Quranda əmr edildiyi kimi, **"Rəbbiniz tərəfindən bağışlanmağa və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan cənnətə tələsin" (Ali-İmran surəsi, 133)** ayəsinə uyğun xeyirlərdə yarışır və önə keçənlərdən olmaq üçün cəhd edirlər.

# ŞÖVQ VƏ HƏYƏCAN MÖMİNLƏRƏ NƏLƏR QAZANDIRIR?

## Güc və qüvvə qazandırır

İnsanlar həyatı boyu özlərini həm zehni, həm də fiziki baxımdan gücləndirə bilmənin üsullarını axtarırlar. Bunun üçün elmin və tibbin bütün imkanlarından istifadə edir, müxtəlif dərmanlar və ya zehni məşqləri ilə irəliləyiş əldə etməyə çalışırlar. Lakin həyatlarının sonuna qədər onları canlı, həyat eşqi ilə dolu, şövqlü saxlayan vasitəni tapa bilmirlər. İnsanı həm zehni, həm də fiziki baxımdan güclü saxlayan şey imandır. İnsanın qəlbindəki Allah qorxusu onu hər an ayıq, gözüaçıq və güclü saxlayır. Allah möminlərə imanlarına və Qurana bağlı olmalarına görə sarsılmaz güc verir. İman gətirənlərin Allah'ın rizasını qazanmaq üçün göstərdikləri istək və şövqləri onlara bu bitib-tükənmək bilməyən gücü qazandırır. Dünya həyatının çox qısa olduğunu, hər an ölə biləcəklərini və hesab gününün yaxınlığını unutmamaları onların zəiflik göstərmədən hər an gümrah və canlı olmalarına kömək edir. İmanın şövqü ilə bir işi qurtardıqda digərinə başlayacaq və dayanmadan xeyirlərdə yarışacaq qədər böyük bir enerji qazanırlar. Qəlblərindəki şövq və həyəcan ilə gecə-gündüz heç fasilə vermədən xeyirli işlər, saleh əməllər edə bilirlər.

Möminlər qazandıqları bu fiziki güclə yanaşı, zehni baxımdan

da diqqət və şüur açıqlığı əldə edirlər. Hadisələrin ən dolaşıq tərəflərini asanlıqla görə bilir, heç kimin ağlına gəlməyən həll yolu yarada bilir, hadisələri ən doğru şəkildə təhlil edə bilir, ən doğru nəticələri çıxara bilirlər. Fiziki baxımdan ən yorğun olduqları anlarda belə yaşadıqları şövqün təsiri ilə zehin açıqlığına sahib ola bilirlər. Allah'ın izni ilə hər işlərini ən həssas və mükəmməl şəkildə görərək uğurlu nəticələr əldə edirlər. Qısası, şövqlə gördükləri hər işdə bitməyən əzmkarlıq və güc nümayiş etdirir və heç zəiflik hiss etmirlər. İstədikləri nəticəni əldə etmədikdə isə bunda mütləq bir xeyir olduğunu bilir, əsla ümidsizliyə qapılmır, şövqlərini itirmir və Allah'ın izni ilə dünya həyatının iman gətirənlərin lehinə olacağını bilirlər.

## Allah'ın köməyini və dəstəyini qazandırır...

Quranda **"...Allah Ona yardım edənlərə, mütləq yardım edər. Şübhəsiz ki, Allah qüvvətlidir, qüdrətlidir" (Həcc surəsi)** ayəsi ilə Allah dininə bağlananlara dünya həyatında kömək edəcəyini vəd etmişdir.

Quranda Allah'ın möminlərə olan bu köməyinə nümunə olaraq, Talut və ordusunun həyatından bəhs olunmuşdur. Calutun ordusuna qarşı vuruşan Talutun ordusundakı insanlardan bəziləri zəiflik göstərmiş və vuruşmağa gücləri olmadığını söyləmişlər. Həqiqətən, iman gətirmiş və Allah'a şövqlə qulluq edənlər isə: **"Neçə-neçə az saylı dəstələr Allah'ın izni ilə çox saylı dəstələrə qalib gəlmişdir!" (Bəqərə surəsi, 249)** - deyərək cəsarət göstərmiş və Allah'ın yardımına sığınmışlar. Allah bu saleh qullarını yardımı ilə dəstəkləmiş və çox kiçik dəstə olduqları halda, onları Calutun ordusuna qalib etmişdir. Quranda Allah'ın bu yardımı belə izah olunmuşdur:

**Talut qoşunla birlikdə yola düşdükdə (əsgərlərinə) dedi: "Allah sizi bir çayla imtahan edəcək. Kim ondan içsə,**

**məndən deyildir. Bir ovuc götürən istisna olmaqla, kim ondan dadmasa, o, məndəndir". Onların az bir qismi istisna olmaqla, (hamısı) ondan su içdilər. (Talut) onunla olan möminlərlə birlikdə çayı keçdikdən sonra (bəziləri) dedilər: "Bu gün bizim Caluta və onun qoşununa gücümüz çatmayacaq". Allah'la qarşılaşacaqlarını yəqin bilənlər isə dedilər: "Neçə-neçə az saylı dəstələr Allah'ın izni ilə çox saylı dəstələrə qalib gəlmişdir!" Allah səbir edənlərlədir. Onlar Calutun və onun qoşununun qarşısına çıxdıqda dedilər: "Ey Rəbbimiz! Bizə səbir ver, qədəmlərimizi möhkəmlət və kafir qövmə qələbə çalmaqda bizə yardım et!" (Möminlər) Allah'ın izni ilə onları darmadağın etdilər. Davud Calutu öldürdü. Allah ona hökmranlıq və hikmət verdi, ona istədiyini öyrətdi. Əgər Allah insanların bəzilərini digərləri ilə dəf etməsəydi, yer üzü fəsada uğrayardı. Lakin Allah aləmlərə qarşı lütfkardır. (Bəqərə surəsi, 249-251)**

Bununla yanaşı, Allah Ona qəlbən təslim olan şəxslərin qəlblərinə bir inam və hüzur duyğusu verərək onların imanlarını artırır və mənəviyyatlarını gücləndirir. Bu, Allah'ın dinə şövqlə bağlanmalarına qarşı möminlərə etdiyi köməkdir. Qəlblərində yaşadıqları bu hüzur və inam duyğusu müsəlmanların hansı çətinlik və sıxıntı ilə qarşılaşmasından asılı olmayaraq, şövqlərini itirməmələrinə və əsla zəiflik göstərməmələrinə kömək edir. Quranda Allah'ın möminlərin şövqlərinə qarşı verdiyi dəstək belə bildirilir:

**Möminlərin imanı üstünə iman artırmaq üçün onların qəlbinə rahatlıq göndərən Odur. Göylərin və yerin orduları Allah'ındır. Allah biləndir, müdrikdir. (Fəth surəsi, 4)**

**Möminlər ağac altında sənə beyət edərkən Allah onlardan razı qaldı. (Allah) onların qəlbində olanı bildi, onlara rahat-**

**lıq nazil etdi və onları yaxın bir zəfərlə mükafatlandırdı. (Fəth surəsi, 18)**

**Sonra Allah Öz Elçisinə və möminlərə əminlik nazil etdi, görə bilmədiyiniz döyüşçülər göndərdi və kafirlərə əzab verdi. Budur kafirlərin cəzası. (Tövbə surəsi, 26)**

Quranda inkar edənlərin Peyğəmbərimizi öldürmək üçün tələ qurduqları anda Allah'ın hz. Muhəmmədi (s.ə.v) qatından hüzur və inam duyğusu ilə dəstəklədiyi bildirilir:

**Əgər siz (Peyğəmbərə) kömək etməsəniz, (bilin ki,) Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq (Məkkədən) çıxartdılar. O iki nəfər mağarada olarkən (onlardan) biri öz yoldaşına dedi: "Qəm yemə, Allah bizimlədir!" Allah ona arxayınlıq nazil etdi, sizin görmədiyiniz döyüşçülərlə ona yardım göstərdi və kafirlərin sözünü alçaltdı. Ancaq Allah'ın sözü ucadır. Allah qüdrətlidir, müdrikdir. (Tövbə surəsi, 40)**

Allah'ın Quran ayələri ilə bildirilən bu köməyi və dəstəyi möminlərin şövqləri sayəsində dünyada alacaqları qarşılıqlardan biridir. Axirətdə alacaqları qarşılıq isə, şübhəsiz ki, daha böyükdür.

## Cənnəti qazandırır...

Allah iman gətirib saleh əməllər edənləri belə müjdələyir:

**İman gətirib saleh əməllər edənlərə müjdə ver ki, onlardan ötrü altından çaylar axan cənnət bağları vardır. Hər dəfə onun meyvələrindən onlara ruzi verildikcə: "Bu ki, əvvəlcə bizə verilən ruzidir!"– deyəcəklər. Halbuki, onlara (dünyadakının) oxşarı veriləcəkdir. Onlardan ötrü orada pak zövcələr var və onlar orada əbədi qalacaqlar. (Bəqərə surəsi, 25)**

Allah bu neməti onların dünya həyatında göstərdikləri şövq və cəhdlərə qarşı verir. Çünki müsəlmanlar **"Rəbbiniz tərəfindən bağışlanmağa və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan cənnətə tələsin" (Ali İmran surəsi, 133)** ayəsini ən gözəl şəkildə həyatlarına keçirmiş və cənnətə qovuşmaq üçün ömür boyu şövqlə yarışmışlar. Allah **"...Kim yaxşı bir iş görsə, (bilsin ki,) Allah əvəzini verəndir, biləndir. (Bəqərə surəsi, 158)** ayəsində də bildirdiyi kimi, könüldən, yəni şövqlə edilən xeyir işlərə mükafatını verir. Buna görə də möminlər dünya həyatında etdikləri zərrə qədər xeyirin də iki qat qarşılığını alacaq və Allah onlardan, onlar da Allah'dan razı qalacaqlar:

> **Allah dedi: "Bu, doğru danışanlara doğruluqlarının fayda verəcəyi gündür! Onlar üçün altından çaylar axan və içində əbədi qalacaqları cənnət bağları hazırlanmışdır". Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Bu, böyük uğurdur. (Maidə, 119)**
>
> **(O gün möminə deyiləcəkdir): "Ey arxayın olan kəs! Razı qalmış və razılıq qazanmış halda, öz Rəbbinə tərəf dön! Mənim qullarımın (cərgəsinə) keç! Cənnətimə daxil ol! (Fəcr surəsi, 27-30)**

# DİNİ SƏTHİ YAŞAYAN İNSANLARIN ŞÖVQSÜZLÜYÜ

Kitabın əvvəlində: "İman gətirirəm", - deyən hər kəsin imanının bir olmayacağından bəhs etmişdik. Elə bu hissədə də əsl mənada iman gətirməyən insanların iman zəifliklərindən qaynaqlanan şövqsüz ruh hallarından bəhs edəcəyik. Lakin bundan əvvəl bu şəxslərin Quranda necə təsvir olunduqları, dinə olan münasibətləri və həyat məqsədlərini göstərərək bu fərqliliyin səbəblərini açıqlayacağıq.

## Dini səthi yaşayan insanlar kimlərdir?

Quran ayələrində bu şəxslər "qəlblərində xəstəlik olanlar", "münafiqlər", "ağır tərpənənlər" və ya "geridə qalanlar" olaraq adlandırılır. Ən diqqət çəkici xüsusiyyətlərindən biri isə **"...Onlar nə sizdəndirlər, nə də onlardan. (Mücadilə surəsi, 14), "Onlar (imanla küfrün) arasında tərəddüd edir, nə bunlara (möminlərə), nə də onlara (kafirlərə) tərəf olurlar..." (Nisa surəsi, 143)** ayələri ilə bildirildiyi kimi, nə cahiliyyə cəmiyyətinə, nə də mömin camaatına daxil olmalarıdır. Lakin çox qəribədir ki, bu insanlar möminlərin arasında yaşayırlar. Xarici görünüşləri və bəzi rəftarları ilə möminlərin həyat tərzini xatırladan şəkildə yaşayırlar. Əslində, onlara qətiyyən bənzəmirlər. Çünki möminlərin ən bariz xüsusiyyətləri Allah'a olan səmimi iman və sədaqətləri ikən, bu şəxslər qəlblərində belə güclü bir inanc daşımırlar. Nə qədər dilləri ilə bunun

tam əksini söyləsələr də, əslində, onlar iman gətirməyiblər. Quranda bu vəziyyət belə təsvir olunur:

**İnsanlar arasında elələri də vardır ki, mömin olmadıqları halda: "Allah'a və axirət gününə inanırıq", - deyirlər. Onlar Allah'ı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki, yalnız özlərini aldadır və (bunu) anlamırlar. (Bəqərə surəsi, 8-9)**

Allah ayələrində bu şəxslərin dilləri ilə söylədiklərinin qəlblərində gizlədiklərindən tamamilə fərqli olduğuna diqqət çəkmişdir. Bunun səbəbi bu şəxslərin qəlblərində olan xəstəlikdir. Quranda bu həqiqət belə izah olunmuşdur:

**Onların qəlblərində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də üzücü bir əzab çəkəcəklər. (Bəqərə surəsi, 10)**

Lakin bu, fiziki deyil, mənəvi xəstəlikdir. Bu xəstəlikdə insan imanı lazım olan kimi qavrayıb yaşaya bilmir. Allah'ın varlığının açıq-aşkar dəlillərini gördüyü halda, qəlbini Allah'a bağlamır, Ondan gərəyi kimi qorxub çəkinmir. Belə ki, Allah'ın dinini tam olaraq yaşamır. Vicdanı ona doğrunu ilham etdiyi halda, nəfsinin istəklərinə təslim olaraq dili ilə təsdiq etdiyi həqiqətləri həyata keçirməkdə zəiflik göstərir. Dünya həyatını və maddi mənfəətlərini, axirətdə qazanacaqları ilə müqayisədə daha yaxın və gözəl görür. Buna görə, dünyanı çox sevir və axirəti arxa plana atır.

## Niyə möminlərlə birlikdədirlər?

Qəlbində xəstəlik olan şəxslərin fərqli inanclarına baxmayaraq, yenə də möminlərin arasında yaşamaq istəmələri, əlbəttə ki, qəribədir. Bunun bir səbəbi, bu şəxslərin din əxlaqının qazandırdığı

gözəlliklərdən və mənfəətlərdən, möminlərin təmin etdiyi rahat və hüzurlu mühitdən istifadə etmək istəmələridir. Cahiliyyə cəmiyyətində əsla əldə edə bilməyəcəkləri üstün əxlaqa sahib olan möminlərlə birlikdə olmağı, belə insanlardan ibarət bir mühiti daha cəzbedici hesab edirlər. Qəlblərində nə qədər qəti iman yaşamasalar da, mövzunun əvvəlində də vurğulandığı kimi, bu şəxslər tam inkarçı hesab olunmurlar. Nə cahil cəmiyyətdən, nə də mömin camaatındandırlar. Bunun səbəbi isə qəlblərindəki şübhədir.

Dünya həyatını çox cazibəli hesab etməklə yanaşı, Allah'ın dünyada və axirətdə möminlərə vəd etdiyi nemətləri də cəlbedici hesab edirlər. Tam yəqinliklə iman gətirmədikləri halda, "əgər doğrudursa", "birdən bütün bu vəd edilənlər doğru olarsa" kimi ehtimallar da onları düşündürür. Belə vəziyyətdə möminlərin qovuşacağı nemətlərdən və gözəlliklərdən özlərinin də faydalana biləcəklərini ümid edirlər.

Onlar düşünürlər ki, dinin tələb etdiyi hər şeyi səmimi imana sahib olan möminlər edəcək, özləri isə dünyəvi mənfəətləri uğrunda onlara yaxınlaşaraq bu vəziyyətdən istifadə etməyə çalışacaqlar. Lakin hər hansı çətinlik və ya sıxıntı yarananda üz çevirib qaçmağa çalışacaqlar. Quranda Peyğəmbərimiz (s.ə.v) dövründə yaşamış insanlardan nümunə verilərək, bu azğın məntiqə belə diqqət çəkilmişdir:

**İçərinizdə elələri də var ki, (cihada çıxdıqda) (özlərini) yubandırar və sizə bir müsibət üz vermiş olduqda: "Allah mənə mərhəmət göstərdi ki, mən onlarla birlikdə olmadım", - deyər. Əgər Allah'dan sizə bir lütf yetişərsə, onda guya sizinlə onun arasında heç vaxt bağlılıq olmamış kimi: "Kaş mən də onlarla birlikdə olub böyük bir uğur qazanaydım!" - deyər. (Nisa surəsi, 72-73)**

**Onlar sizə göz qoyurlar. Əgər Allah'dan sizə bir qələbə gəlsə: "Məgər biz də sizinlə deyildikmi?" - deyərlər. Əgər kafirlərə bir qələbə nəsib olsa: "Məgər biz sizə qalib gələ bilməzdikmi, sizi möminlərdən qorumadıqmı?" - söyləyərlər. Qiyamət günü Allah sizin aranızda hökm verəcəkdir. Allah kafirlərə möminləri (məğlub etməyə) yol verməyəcəkdir. (Nisa surəsi, 141)**

Ayələrdə izah olunduğu kimi, mənfəət əldə etməyə çalışan bu şəxslər mömin camaat ilə birlikdə hərəkət edərək onların dünyəvi imkanlarından faydalanmaq istəyirlər. Belə imkanla qarşılaşanda dərhal özlərini ön plana çıxarmağa çalışır, dinə və möminlərə nə qədər bağlı olduqlarından bəhs edərək müsəlmanları aldatmağa çalışırlar. Amma o vaxta qədər göstərdikləri şövqsüzlük və zəiflik bütün möminlər tərəfindən açıq-aşkar bilindiyi üçün bu əməllərini həyata keçirə bilmirlər.

Lakin bu, insanların sahib olduqları elə azğın düşüncədir ki, səmimiyyətsiz hərəkətlərinə özlərinin də şahid olduqları halda, möminlərin axirətdə alacaqları qarşılıqdan da faydalana biləcəklərini zənn edərək aldanırlar. Quranda onların axirətdə göstərəcəkləri bu hərəkətlərə belə diqqət çəkilmişdir:

**O gün münafiq kişilər və münafiq qadınlar iman gətirənlərə: "Gözləyin ki, biz də sizin işığınızdan alaq", - deyəcəklər. (Onlara) deyiləcəkdir: "Geriyə qayıdıb işıq axtarın!" Onların arasına içəri tərəfində mərhəmət, çöl tərəfində əzab olan qapılı bir sədd çəkiləcəkdir. (Münafiqlər) onları haraylayıb deyəcəklər: "Məgər biz sizinlə birlikdə deyildikmi?" (Möminlər) deyəcəklər: "Bəli, lakin siz öz-özünüzü aldadırdınız, (möminlərə bəla üz verməsini) gözləyirdiniz, (haqqa) şübhə edirdiniz və Allah'ın əmri gələnədək xülyalar sizi yoldan çıxartdı. Tovlayan (şeytan) Allah barəsində sizi yaman aldatdı.**

**Bu gün nə sizdən, nə də kafirlərdən fidyə qəbul olunar. Sığınacağınız yer də oddur. Sizə layiq olan elə odur. Ora nə pis dönüş yeridir!" (Hədid surəsi, 13-15)**

Bu insanlar bilməlidirlər ki, qəlblərində səmimi imanı yaşamadıqları müddətcə möminlərlə birlikdə olmalarının Allah qatında onlara heç bir faydası olmayacaq. Çünki Allah hər insana müstəqil vicdan, ağıl və mühakimə qabiliyyəti vermişdir. Belə ki, hər insanı tək hesaba çəkəcək, tək mükafatlandıracaq və ya tək əzablandıracaq. Hər insan Rəbbimizin qarşısında Onun rizasını qazanmaq üçün göstərdiyi səmimi cəhdləri qədər mükafat alacaq. Bu şəxslərin dünya həyatında sadəcə dilləri ilə iman gətirdiklərini söyləmələri isə, əlbəttə ki, Allah'ın istəməsindən başqa kifayət etməyəcək. Çünki iman gətirən bir insanın bu həqiqəti, eyni zamanda, bütün varlığı ilə təsdiq etməsi lazımdır. Qəflətə düşənlər isə möminlərin yanında olmalarının onlara hesab günü mənfəət gətirəcəyini düşünərək yalnız özlərini aldadırlar.

## Qəlbində xəstəlik olanların şövqsüzlüyü...

**İnsanlardan eləsi də vardır ki, Allah`a şübhə ilə ibadət edir. Əgər ona bir xeyir çatsa, onunla rahatlıq tapar. Yox, əgər başına bir iş gəlsə, üz döndərib (küfrə) qayıdar. O, dünyanı da itirər, axirəti də. Gerçək zərər də elə budur. (Həcc surəsi, 11)**

Qurandakı bu ayə dinə tam bağlanmayan insanların şövqsüz hallarını təsvir edir. Onlar öz şəxsi mənfəətlərinə görə çox şövqlü ola bilirlər. Lakin mənfəətlərinə zidd gedən bir vəziyyət yarananda, həmin an şövqlərini itirirlər. Allah'a və axirətə səmimi olaraq iman gətirmədikləri üçün belə vəziyyətdə dinin bir çox hökmünü unudurlar. Allah'ın dünya həyatını bir imtahan mühiti kimi yaratdığını, insanı xeyir və şər kimi görünən bir çox hadisə ilə sınayacağını və

ancaq gözəl səbir göstərənləri mükafatlandıracağını düşünmürlər. Qəlblərindəki xəstəlik səbəbindən şübhəyə qapılır və Allah'ın köməyindən şübhəyə düşürlər. Allah'a güvənmək yerinə ümidsizləşir və Allah haqqında sui-zənn edirlər. Beləliklə, qəlblərində gizlətməyə çalışdıqları xəstəlik söhbətlərinə də təsir edir. Quranda bu insanların belə vəziyyətdə şövqlərini itirib Allah'ın vədindən şübhəyə düşmələrinə belə örnək verilmişdir:

**O zaman münafiqlər və qəlbində xəstəlik olanlar: "Allah və Onun Elçisi bizə ancaq yalan vəd vermişdir", - deyirdilər. (Əhzab surəsi, 12)**

Əlbəttə ki, göstərdikləri bu hərəkət qəlblərindəki imanın möhkəm olmasından qaynaqlanır. Bu insanlar qarşılaşdıqları hər şeyin onlar üçün bir imtahan olaraq yaradıldığını, həmçinin imtahana verdikləri reaksiyalarla iman gətirənlərin qəlblərində xəstəlik olanlarla fərqləndiyini dərk edə bilmirlər. Qəlbən iman gətirmiş möminləri nə olursa olsun, Allah'a yəqin imanla bağlanmağın və Allah'ın köməyinin yaxın olduğunu bilməyin hüzurunu və şövqünü yaşayırlar.

## Ağır tərpənirlər...

Münafiq xarakterli insanlar inanclarındakı azğınlıq səbəbindən möminlərdən tamamilə fərqli və Qurandan çox uzaq bir həyat fəlsəfəsi yaradıblar. Məntiqləri Allah'ın rizasını qazanmaq üçün deyil, nəfslərini razı salmaq və mənfəət əldə etmək üçün işləyir. Dinin mənfəətləri üçün cəhd etməyin mənasız olduğunu düşünürlər.

Axirətin varlığına şübhə ilə inanırlar. Elə buna görə də axirət üçün cəhd edərkən çox çalışacaqlarını, yorulacaqlarını, maddi-mənəvi əmək sərf edəcəklərini, lakin dünyada ikən əllərinə heç bir şeyin keçməyəcəyini, heç nə qazanmayacaqlarını düşünürlər. Dinin mənfəətləri üçün ayıracaqları vaxtı dünyəvi mənfəətlərinə

xərcləyərlərsə, daha çox nailiyyət qazanacaqlarını düşünürlər. Əksinin avamlıq olduğunu düşünərək dini mövzuda edəcəkləri hər xeyir işə **“Aranızda elələri də vardır ki, ağır tərpənər” (Nisa surəsi, 72)** ayəsi ilə də bildirdiyi kimi, laqeyd yanaşır və orta yolu tuturlar. Qısası, dünyəvi mənfəətləri olmayan hər mövzuda olduqca şövqsüzdürlər.

Ehtiyac içində olan, zülm görən insanlara, müsəlmanlara faydalı olmaq üçün cəhd etmələrini tələb edən bir vəziyyətlə qarşılaşanda, mümkün olduğu qədər ağır tərpənirlər. Davamlı çətinlik yaradaraq problemi həll edilməz kimi göstərməyə çalışırlar. Dini yaşamadıqları üçün qarşılarına çıxan bir problemi həll edəcək, bir xeyir işi tamamlayacaq güc və enerjini özlərində tapa bilmirlər. Ya möminləri yarı yolda buraxacaq şəkildə bir anda geri çəkilir, ya da əllərindəki işi mümkün qədər başdansovdu edərək bu həvəssizliklərini ortaya qoyurlar.

Halbuki, şövqsüzlüyü ilə ön plana çıxan insana yaxşı gəlir gətirən bir fabrikin başına keçəcəyi və ona yüksək maaş veriləcəyi deyilərsə, hətta bir də nailiyyət göstərdiyi təqdirdə ona şirkətin şəriklərindən biri olacağı vəd edilərsə, göstərəcəyi rəftar çox fərqli olar. Əlbəttə ki, əldə edəcəyi dünyəvi mənfəətləri düşünməyin verdiyi coşqunluq ilə işinə sahib çıxar. Həll edilməyən mövzular sürətlə həll edilər.

Göründüyü kimi, qəlbində xəstəlik olan bu şəxslərin dinin mənfəətlərinə gəldikdə göstərdikləri ağırlıq ilə öz mənafeləri uğrunda göstərdikləri şövq arasında böyük fərqlər vardır. Bu fərqlilik onların dünya həyatının mənfəətlərini Allah’ın rizasını qazanmaqdan daha üstün görmələrindən qaynaqlanır.

## Ağır tərpənmək bir qazanc deyil, əksinə, böyük ağılsızlıqdır...

Şübhəsiz ki, qəlblərində xəstəlik olan şəxslərin ağır tərpənmələri onların böyük qəflət içərisində olduqlarını göstərir. Allah yolunda edilən hər cəhd insana mümkün olan ən böyük mənfəəti qazandırır. İnsanın şövqlə ortaya qoyduğu əmək ona Allah'ın rizasını qazandırar. Allah razı olduğu qullarına həm dünyada, həm də axirətdə gözəllik və yaxşılıq vəd etmişdir. Belə ki, dünya mənfəətləri əvəzinə, Allah'ın rizasını hədəf seçən bir insan, eyni zamanda, nəfsi adına da mümkün olan ən gözəl qarşılığı alar, dünya həyatının da gözəlliklərini qazanar.

Ancaq bunu da xatırlatmalıyıq ki, saleh möminin şövqü etdiyi cəhdin nəticəsində dünya həyatında mütləq qarşılıq almaq üzərinə qurulmamışdır. Onun üçün Allah'ın razı olacağını bilmək kifayətdir. Bunun qarşılığında, Allah sonsuz bir ədalət, sevgi, rəhmət və lütfün sahibidir. Onun rizası üçün edilən hər şeyin qarşılığını artıqlaması ilə verəndir.

Allah ayələrində tək bir xardal dənəsi və ya tək bir zərrə qədər belə olsa, sərf edilən heç bir əməyin hədər getməyəcəyini belə bildirmişdir:

**Həqiqətən, Allah zərrə qədər də olsa zülm etməz. Əgər (qulun gördüyü iş) yaxşı əməl olarsa, (Allah) bunu artırar və Öz tərəfindən böyük mükafat verər. (Nisa surəsi, 40)**

**Müttəqilərə: "Allah nə nazil etmişdir?" – deyildikdə, onlar: "Xeyir", - deyərlər. Bu dünyada xeyirli işlər görənlər üçün gözəl mükafat hazırlanmışdır. Axirət yurdu isə daha xeyirlidir. Müttəqilərin yurdu necə də gözəldir. (Nəhl surəsi, 30)**

**(Loğman dedi:) "Oğlum! (Gördüyün iş) bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin dibində olsa da, Allah onu aşkar edər. Həqiqətən, Allah Lətifdir, xəbərdardır. (Loğman surəsi, 16)**

İnsanların bir qisminin axirətə hazırlıq mövzusunda ağır tərpənmələri böyük ağılsızlıqdır. Çünki insan nə qədər böyük ciddiyyətlə cəhd etsə, dünyada və axirətdə o qədər böyük və gözəl qarşılıq alacaq. Əks təqdirdə isə sonsuza qədər böyük bir itkiyə məruz qalacaq.

# ŞÖVQSÜZ VƏ HƏVƏSSİZ EDİLƏN İŞLƏR NECƏ NƏTİCƏLƏNİR?

İnsanların əksəriyyəti dini yaşayarkən göstərdiyi şövqsüzlüyü adi durğunluq və tənbəllik kimi qəbul edir, belə ki, onlar bu vəziyyəti düzəltmək üçün heç bir cəhd etmirlər. Bunun onların sonsuz həyatına mənfi təsir edəcək qədər ciddi çatışmazlıq olduğunu anlamırlar. Halbuki, Quranda bu xəstəliyə diqqət çəkilmiş və insanlar belə təhlükəyə qarşı xəbərdar edilmişdir. Çünki insanların axirətdə şövqsüzlüklərinin səbəb olduğu zərərləri aradan qaldırmaq imkanı olmayacaq. Bu şəxslərin şövqsüzlüklərinə görə məruz qaldıqları itkilərdən bəzilərini xatırlatmaq istəyirik.

Quranda **"...Allah Ona yardım edənlərə, mütləq yardım edər. Şübhəsiz ki, Allah qüvvətlidir, qüdrətlidir." (Həcc surəsi, 40)** ayəsi ilə də xatırladıldığı kimi, Allah dinə şövqlə xidmət edənlərin, Allah'ın razılığını qazanmaq üçün var gücü ilə çalışanların köməkçisidir. Lakin şövqsüz olan, Allah rizası üçün edilən işlərdə ağır tərpənib geridə qalmaqla açıqgözlü və diribaş olduqlarını zənn edən bu şəxslər isə Allah'ın köməyindən məhrum qalırlar.

Həmin insanlar səmimi imanın gətirdiyi ağıl, şüur və diqqət açıqlığına heç vaxt sahib olmurlar. Quran ayələrinin bəzilərinə itaət edib

bəzilərini tətbiq etmədikləri üçün Quranın doğru yola çatdıran vəsfi onların üzərində təcəlli etmir. Bir az möminlərdən, bir az da cahil cəmiyyətdən öyrəndikləri məntiqlərlə hərəkət edir və buna görə də heç vaxt gerçək nailiyyət əldə edə bilmirlər.

Qəlblərindəki şövqsüzlük onları dərin qəflətə sürükləyir. Həvəssiz olduqlarına görə, ərincəklik edir və edəcəkləri işi normal vaxtdan daha gec başa çatdırırlar. Belə ki, onlar axirətləri üçün saleh əməllər edərək yarışmağa çalışmırlar. Xeyirli işlər görməkdə tələsmir və ya bu mövzuda fiziki və zehni enerji sərf etmək istəmirlər. Bir problemlə üzləşdikdə bir çox həll yolu tapa biləcəkləri halda, problemi heç cür həll etmək istəmirlər.

Qısası, şövqsüz insanların etdikləri işlər səmərəsiz olur və çox vaxt bərəkətsiz nəticələr verir. Onlar yaranan bu bərəkətsizliyə qarşı nə qədər bəhanələr uydursalar da, bunun əsl səbəbi onların şövqsüz olmalarıdır. Şövqsüzlük isə səmimi iman gətirməmələrinin nəticəsidir.

Lakin, bunu da unutmamaq lazımdır ki, bu şəxslər keçirdikləri mənəvi xəstəliklə hər kəsdən çox özlərinə zərər verirlər. Çünki dünya həyatında məruz qaldıqları bu itkilərlə yanaşı, axirətdə də - Allah'ın istəməsindən başqa – böyük bədbəxtliklə qarşılaşacaqlar. O gün onlar ağır tərpəndiklərinə, yarışıb önə keçənlərdən olmadıqlarına görə peşman olacaq və: "Dünyada buraxdığımız əməllərə görə vay halımıza!" - deyəcəklər:

**Allah ilə qarşılaşmağı yalan sayanlar artıq ziyana uğramışlar. O saat onları qəflətən haqladıqda onlar öz günah yüklərini bellərində daşıyaraq deyəcəklər: "Dünyada buraxdığımız əməllərə görə vay halımıza!" Onların daşıdıqları şey necə də pisdir! (Ənam surəsi, 31)**

Hesab günü dünyada ikən qaçmağa çalışdıqları və ya həvəssiz etdikləri bütün işlərin özlərinə zərər olaraq geri qayıdacağını görəcəklər. Allah'ın razılığını qazanmağın vacibliyinə etinasız yanaşdıqları və lazım olan qədər cəhd etmədikləri üçün bütün əməllərinin boşa çıxdığına şahid olacaqlar. Allah bu həqiqəti bir çox Quran ayəsində də xəbər vermişdir:

**İman gətirənlər isə deyəcəklər: "Sizinlə bərabər olacaqlarına dair Allah'ın adı ilə möhkəm and içənlər bunlardırmı?!" Onların əməlləri puça çıxdı, özləri də ziyana uğrayanlardan oldular. (Maidə surəsi, 53)**

**Bu, ona görədir ki, onlar Allah'ın qəzəbinə səbəb olan şeyə uydular və Onun razı qaldığı şeyə nifrət etdilər. Buna görə də Allah onların əməllərini puça çıxartdı. (Muhəmməd surəsi, 28)**

**Sözsüz ki, kafir olanlar, insanları Allah yolundan sapdıranlar və hidayət yolunu tanıdıqdan sonra Peyğəmbərə qarşı çıxanlar Allah'a heç bir zərər vura bilməzlər. Allah onların bütün əməllərini puça çıxaracaqdır. ( Muhəmməd surəsi, 32)**

**O gün neçə-neçə üzlər zəlil olub yerə dikiləcək, üzülüb əldən düşəcək. (Ğaşiyə surəsi, 2-3)**

Həmçinin, hesab günü bu şəxslərin əməl dəftərlərini sağdan gözləyərkən, soldan almaları təhlükəsi də var. Onlar dünya həyatında möminlərlə birlikdə olmağın axirətdə də onları xilas edəcəyini düşünürlər. Halbuki, daha əvvəl də bildirdiyimiz kimi, Allah'ın qarşısında hər insan tək sorğu-sual ediləcək. Yanındakı insanların nə qədər şövq göstərdiyi və ya nə qədər çox saleh əməllər etdiyi başqaları üçün heç bir əhəmiyyət daşımayacaq.

**O gün onlar möminlərə: "Məgər biz sizinlə birlikdə deyildikmi?" (Hədid surəsi, 14)** - deyəcəklər. Lakin onlara: **"Kitabını**

**oxu, bu gün sənə özün-özünü hesaba çəkməyin yetər" (İsra surəsi, 14)** - cavabı veriləcək. Beləcə, etdiklərini və etməyib geridə buraxdıqlarını özləri də biləcək və alacaqları qarşılığa layiq olduqlarının şahidi olacaqlar.

# ŞÖVQSÜZLÜKDƏN XİLAS OLMAĞIN YOLU

## Şövqsüzlüyün yeganə xilas yolu: Allah qorxusu...

Şövqsüzlüyün təməlində çox vaxt iman zəifliyinin dayandığını və bunun nə qədər təhlükəli əxlaq pozuqluğu olduğunu qavrayan şəxs bu xəstəlikdən dərhal xilas olmaq üçün Quranda göstərilmiş bütün əmrlərə təslim olmalıdır. Hər şeydən əvvəl, şövqün əsl mənbəyinin Allah qorxusu olduğunu bilməli və bu yöndə özünü gücləndirməli, dərin təfəkkürlə Allah'a yaxınlığını artırmalıdır. Həm Allah'a sözlü dua edib kömək istəməli, həm də feili olaraq hərəkətə keçərək əlindən gələn hər cür cəhdi etməlidir.

Şübhəsiz ki, belə vəziyyətdə insanın ilk edəcəyi şeylərdən biri düşünməkdir. Allah Quranda vicdanı dinləyərək düşünməyin insanı doğruya aparan bir üsul olduğuna diqqət çəkmişdir. İnsan Allah'ın varlığını və böyüklüyü, insanlar üzərindəki rəhmətini düşünməli, beləcə, Onun razılığını qazanmağın vacibliyini qavramalıdır. Eyni zamanda, Allah'ın insanı bir məqsədlə yaratdığını, onu imtahan etdiyini də düşünməlidir. Allah'ın hər an onunla bərabər olduğunu, anbaan etdiklərini, danışdıqlarını, hətta düşündüklərini gördüyünü və eşitdiyini bilməlidir. Etdiyi bütün hərəkətlərin Allah qatında mühafizə olunduğunu və hesab günü bütün bunlardan hesaba çəkiləcəyini unutmamalıdır. Ölümün nə qədər yaxın olduğunu və insana heç

gözləmədiyi bir anda qəflətən gələcəyini düşünməlidir.

Dünya həyatının nə qədər qısa, axirət üçün cəhd etməyin nə qədər vacib olduğunu başa düşməlidir. Cənnətin gözəlliyini, nemətlərin insana nə qədər böyük ləzzət verəcəyini təfəkkür etməli və sonsuzluğu dərk etməyə çalışmalıdır. Həmçinin, cəhənnəmin necə böyük əzablarla dolu olduğunu, orada gözəl olan, sevinc gətirən, zövq verən heç bir şeyin olmadığını, sonsuza qədər də oradan geri qayıtmağın mümkün olmayacağını düşünməlidir. Dünyada ikən ona həqiqətlər göstərildiyi halda, düşünməyib üzərindən keçərsə, sonsuza qədər necə böyük peşmançılıq və təəssüf hissi duyacağını bilməlidir.

İnsan bütün bunları səmimi düşünərsə, ən doğru nəticəyə gələr. Belə aqibətlə üzləşməkdənsə, vicdanının səsini dinləyib və iradəsindən istifadə edib hərəkətə keçməyin, şövqlə dinə xidmət etməyin çox asan olduğunu görər və qərarını verər. Onsuz da üç və ya beş on illikdən çox olmayan həyatını Allah'ın razılığını, sevgisini və rəhmətini qazanmağa həsr edəcək və Rəbbimizin vəd etdiyi cənnətə qovuşmaq üçün yarışacaq.

İnsanın cəhənnəmə getmə ehtimalını bir anlıq düşünməsi də yaşadığı qəflətdən xilas olmasına kömək edər. Çünki cəhənnəm elə yerdir ki, dünyadakı heç bir peşmançılıq oradakı peşmançılığı insana yaşatmaz, heç bir dünya əzabı da cəhənnəm əzabı ilə müqayisə edilə bilməz. İnsan cəhənnəmin sonsuz əzabından xilas olmağın ən gözəl yolu olan cəhd etməyin nə qədər vacib olduğunu anlamalı və şövqünü artırmalıdır. Bunun üçün də Quranda bildirilən cəhənnəm ayələrini oxuyub dərindən təfəkkür etməlidir.

Hər insan bu həqiqətləri düşünməli, şövqsüzlüyün dünya və axirət düşüncəsindəki yanlışlıqdan qaynaqlandığını bilməli və dərhal axirəti üçün cəhd etməlidir. Hadisələr qarşısında göstərdiyi laqeydliklə bir müddət sonra vicdani həssaslığını tamamilə itirəcəyini və qəlbinin qatılaşacağını da nəzərə almalı və bu vəziyyətdən qorunmaq

üçün tədbir görməlidir. Allah **"Möminlərin qəlbinin Allah'ın zikri və haqdan nazil olan ayələr üçün yumşalması, daha öncə özlərinə kitab verilmiş, uzun müddət keçdikdən sonra qəlbləri sərtləşmiş, çoxu da fasiq olmuş kimsələr kimi olmaması vaxtı gəlib çatmadımı?" (Hədid surəsi, 16)** ayəsi ilə iman gətirənlərə bu mövzunun nə qədər vacib olduğunu xatırlatmışdır. Başqa ayədə isə Allah daş kimi, hətta daha da sərt olan qəlbləri təsvir edərək müsəlmanları belə xəbərdar etmişdir:

> **Sonra bunu ardınca sizin qəlbləriniz sərtləşib daş kimi, hətta ondan da sərt oldu. Həqiqətən, daşlardan eləsi də var ki, içərisindən çaylar qaynayıb çıxar. Onlardan eləsi də var ki, yarılar, içərisindən su çıxar. Eləsi də var ki, Allah'ın qorxusundan yuvarlanıb yerə düşər. Allah sizin nə etdiklərinizdən xəbərsiz deyildir. (Bəqərə surəsi, 74)**

Allah yuxarıdakı ayədə Allah qorxusundan içindən çaylar qaynayıb çıxan, diyirlənən daşların nümunəsini vermişdir. Elə Allah qorxusu da bu bənzətmədə olduğu kimi, şövqsüz insanlara şövq gətirəcək və onları Allah'ın razılığını qazanmaq üçün xeyir işlərdə yarışmalarına səbəb olan əxlaqa qovuşduracaq.

# NƏTİCƏ

**K**itabın ilk səhifəsindən bura qədər möminlərin dini necə böyük şövqlə yaşadıqlarına, bundan necə böyük həzz aldıqlarına və xeyirlərdə şövq və həvəslə yarışıb önə keçdiklərinə görə Allah qatında necə üstün və şərəfli qarşılıq alacaqları mövzusuna toxunduq. Şövqün möminlərə necə iradə, qətiyyət və cəsarət verdiyinə diqqət çəkdik. Allah'ın **"...Möminsinizsə, üstün olacaqsınız." (Ali-İmran surəsi, 139)** ayəsinin şövqlü insanların üzərində necə təcəlli etdiyini izah etdik.

Allah'ın və axirət gününün haqq olduğunu bildikləri halda, zəiflik göstərək geridə qalan şəxslərin şövqsüzlüyündən də bəhs etdik. Onların necə böyük itkiyə məruz qaldıqlarını göstərərək, hesab günü nə qədər böyük peşmançılıqla qarşılaşacaqlarını izah etdik. Cəhdi boşa çıxanlardan ola biləcəklərini xatırladaraq vaxt var ikən onları qəlbən iman gətirməyə dəvət etdik. İman gətirənlərin arasında yaşadıqları və Quranı bildikləri halda, möminlərdən fərqli xarakter göstərən şəxsləri möminlərdən, özü də yarışıb önə keçən təqva sahibi öndərlərdən olmağa çağırdıq.

Allah'ın şövqlü qullarını rəhməti ilə müjdələdiyini izah edərək onları hərəkətə keçməyə təşviq etdik. **"Bax gör xəbərdar edilənlərin aqibəti necə oldu" (Saffat surəsi, 73)** ayəsi ilə möminlərin arasında Quran əxlaqının mükəmməlliyinə yaxından şahid olaraq xəbərdar edilənlərin aqibətinin əzab ola biləcəyini xatırlatdıq.

Kitabın sonunda isə bütün vicdan sahibi insanlara vicdanlarının səsini dinləyib Allah'ın Qurandakı dəvətinə böyük şövqlə cavab vermələrini bir daha xatırlatmaq istəyirik. Çünki insan dünyaya bir dəfə gəlir, bir dəfə imtahan olunur və öldükdən sonra bir daha bu dünyaya qayıtması, səhvlərin düzəltməsi mümkün deyil.

Dünya həyatı Quranda da bildirildiyi kimi, göz açıb bağlayana qədər keçir. İnsan burada vicdan və iradəsindən bir müddət istifadə edəcək, amma sonsuza qədər Allah`ın rəhməti üzərində olacaq. Lakin sadəcə: "Burada nəfsimin istəklərini həyata keçirim", - deyə özünü aldadaraq haqq dindən üz çevirsə, nöqsanla dolu qısa dünya həyatı üçün sonsuz və mükəmməl axirət həyatını – Allah'ın diləməsi xaric – itirər. Halbuki, bu, ən zərərli ticarət və ən zərərli seçimdir.

Ən doğru yol isə  dünya həyatında nəfsinin ardınca getməyib cənnəti qazanmaqdır. Çünki insan ölüm mələkləri ilə qarşılaşanda dünya həyatında daddığı və vacib gördüyü zövqləri yadına salmağa belə vaxt tapmayacaq. Sonra da hesab gününün dəhşəti yaşanacaq.

Lakin əgər insan həyatını Allah'a həsr etsə, şövqlə dinə xidmət etsə, bu dəhşətdən qorxusu olmaz, daxilən çox rahat və hüzurlu olar. Çünki əməl dəftərli təmizdir. Heç bir narahatlıq yaşamadan: **"Budur, oxuyun kitabımı!" (Haqqə surəsi, 19)** - deyəcək. Elə isə belə gözəl sonla qarşılaşmaq var ikən niyə əksi olmalıdır? Niyə insan axirətdə əməl dəftərini qorxu ilə verməlidir, niyə peşmançılıq duymalıdır?... Gözəl sona qovuşmaq var ikən insanın edəcəyi tək şey vicdanından istifadə edib səmimiyyət və şövqlə Quran əxlaqını yaşamağıdır. İnsanın rahat olacağı və zövq alacağı əsl həyat budur! Əksinə, dünya həyatını daha yaxşı yaşamağa  can atsa, dünyadan da zövq almadığını görəcək.

Buna görə də əlinizdəki kitabda bütün insanlar bu vicdan mühakiməsini etməyə, axirət üçün etdiklərinin heç vaxt kifayət etmədiyini düşünməyə və özlərinə peyğəmbərlərin şövqünü, cəhdini nümunə

götürməyə dəvət edilir.

İman gətirənlər indiyə qədər yaşamış bütün müsəlmanlar arasında Allah'a ən yaxın insan ola bilmək və eni göylərlə yer qədər olan cənnətə qovuşmaq üçün yarışmalıdırlar. Çünki Allah ayələrində iman gətirənləri Öz rəhmətinə qovuşa bilmələri üçün böyük şövqlə xeyirlərdə yarışıb önə keçməyə çağırır.

Heç vaxt unudulmamalıdır ki, Allah dinə şövqlə xidmət edənləri axirətdəki dərəcələri etibarı ilə üstün etmiş və onlara nemətlərlə dolu cənnət vəd etmişdir. "Vaqiə" surəsindəki ayələrdə sonsuz şəfqət sahibi olan Rəbbimiz iman gətirənləri belə müjdələyir:

**Xeyirxah işlərdə öndə gedənlər cənnətdə də öndədirlər! Onlar Allah'a yaxın olanlar, Nəim bağlarında qalacaq kimsələrdir. Onların çoxu əvvəlki nəsillərdən, az bir qismi də axırıncılardandır. Onlar bəzənmiş taxtlar üstündə qarşı-qarşıya dirsəklənəcəklər. (Vaqiə surəsi, 10-16)**

# ƏLAVƏ BÖLMƏ
# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və

etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

1- Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

2- Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

3- Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında  həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir  müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

### XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi

problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *(“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

> “Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın

hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fer-

mentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

> "Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı

düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş verlmədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

### Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

### Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

> "Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı

təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı

və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

> "Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

> "Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına

baxmayaraq, bu həqiqəti belə etiraf edir:

> "Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". *(Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)*

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

> "Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu

gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "Australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha

sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

> "Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

> "Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi

elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin formulu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən

professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və

dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoni-

yaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik im-

pulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin

əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

> "Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri

altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü

sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən**
**başqa bizdə heç bir bilik yoxdur!**
**Həqiqətən, Sən Bilənsən,**
**Müdriksən!  (Bəqərə surəsi, 32)**